# Mövlud Çavuşoğlu: "Avropanın can Azərbaycana ehtiyacı var"



**"Rusiyadan qaz tədarükü kəsildikdən sonra Avropa əvvəlcə bizə, sonra Azərbaycana müraciət etdi. Niyə? Çünki Avropanın can Azərbaycanın qazına ehtiyacı var".**

"Report" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

O qeyd edib ki, Rusiya-Ukrayna müharibəsinə görə dünyada yaranan taxıl böhranını həll edən ölkə Türkiyə oldu.

"BMT Baş katibi Antonio Quterreş deyib ki, taxıl böhranının həll edilməsi mənim ən böyük uğurum olub. Əlbəttə, bizim sayəmizdə. BMT qida böhranlarını həll edə bilmir. Paxıllıq Avropa İttifaqının gözünü kor edir", - o bildirib.



## Rusiya, Belarus və Myanma...

Üç ölkə II Elizabetin dəfn mərasiminə dəvət edilməyib

**Üç ölkə Kraliça II Elizabetin dəfn mərasiminə dəvət edilməyib.**

APA-nın Britaniya bürosunun Press Associationa istinadən xəbərinə görə, kraliçanın 19 sentyabrda keçiriləcək dəfn mərasiminə Rusiya, Belarus və Myanmaya dəvət göndərilməyib.

Bildirilib ki, İran isə yalnız səfirlik səviyyəsində təmsil olunacaq.



# Ərdoğan: Türkiyə hər zaman Azərbaycanın yanındadır

**Qardaş Türkiyə hər zaman Azərbaycanın yanındadır və ölkələrimiz həmrəydirlər.**

Bunu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə telefon söhbəti zamanı bildirib.

Türkiyə Prezidenti Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə əlaqədar dövlətimizin başçısına, onların yaxınlarına və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib.


№ 164 (5686), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 14 sentyabr 2022-ci il (çərşənbə)




## Bütün vəzifə və tapşırıqlar yerinə yetirilib

Prezident operativ müşavirə keçirib

**Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədində törətdiyi təxribatların qarşısı alınıb.**

Bu barədə sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ermənistan-Azərbaycan sərhədində Ermənistanın törətdiyi təxribatlarla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbər heyətinin iştirakı ilə keçirdiyi operativ müşavirədə bildirilib.

Müşavirədə aidiyyəti üzrə məruzələr təqdim edilib, Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədində törətdiyi təxribatların qarşısının alındığı, bütün müvafiq vəzifə və tapşırıqların yerinə yetirildiyi vurğulanıb.

## Azərbaycan sülh gündəliyini dəstəkləyir

ABŞ dövlət katibi Prezident İlham Əliyevə zəng edib



**Sentyabrın 13-də ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən məlumat verilib.

Telefon söhbəti zamanı ABŞ dövlət katibi Ermənistan-Azərbaycan dövlət sərhədində yaranmış gərginliklə bağlı narahatlığını ifadə etdi.

Prezident İlham Əliyev bildirdi ki, bu gərginlik Ermənistanın genişmiqyaslı təxribatları nəticəsində baş verib və buna görə də məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Antoni Blinken ABŞ-ın regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün öz səylərini davam etdirəcəyini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın sülh gündəliyini dəstəklədiyini və bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyini bildirdi.

# Ordumuzun 50 hərbçisi şəhid olub

Müdafiə Nazirliyi Ermənistanın genişmiqyaslı təxribatları ilə bağlı məlumat yayıb



**Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, genişmiqyaslı təxribatın qarşısı alınarkən Azərbaycan Ordusundan 42, Dövlət Sərhəd Xidmətindən isə 8 hərbi qulluqçu olmaqla ümumilikdə Silahlı Qüvvələrin 50 hərbi qulluqçusu şəhid olub.

Şəhid olan hərbi qulluqçularımızın ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılarımıza Allahdan şəfa diləyirik.

Şəhidlərimizin qanı yerdə qalmadı.

Bildiririk ki, şəhid olmuş hərbi qulluqçularımızın adlı siyahısı ictimaiyyətə əlavə təqdim olunacaq.

# Şanlı Ordumuz düşməni peşman edəcək

Təxribatlardan sonra Paşinyanın bütün ölkələrə yalvarışları cavabsız qalıb



**Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib.**

Müdafiə Nazirliyindən verilən məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin diversiya qrupları Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Paralel olaraq Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki mövqelərimiz müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub.

(səh.4)



## Qırğız Respublikasında "Bayraktar" PUA-larının ilk bazası açılıb

**Qırğız Respublikasının Prezidenti Sadır Japarov Milli Təhlükəsizlik Dövlət Komitəsinin sərhəd xidməti üçün "Bayraktar" pilotsuz uçuş aparatlarının (PUA) ilk bazasının açılışında iştirak edib.**

"Report" xəbər verir ki, bu barədə Qırğız Respublikası Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

Baza ölkə sərhədlərinin müdafiəsi üçün nəzərdə tutulub. PUA-lar ötən il dövlət büdcəsindən ayrılan vəsait hesabına alınıb.

"Mən həmişə demişəm ki, Qırğız Respublikası sülhsevər ölkədir. Silahlı qüvvələrimizi gücləndirmək üçün səylərimiz sırf müdafiə məqsədi daşıyır ", - o deyib.

## 7 nəfər vəfat edib

325 yeni yoluxma faktı qeydə alınıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 325 yeni yoluxma faktı qeydə alınıb, 484 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 818 263 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 806 193 nəfər müalicə olunaraq sağalıb, 9 864 nəfər vəfat edib, aktiv xəstə sayı 2 206 nəfərdir.

## Reklam lövhəsi maşınların üstünə aşdı

Qurğunun aid olduğu sahibkara xəbərdarlıq edilib



**Paytaxtın Nəsimi rayonunda reklam lövhəsi küləyin təsiri ilə parkinq ərazisində olan avtomobillərin üzərinə aşıb.**

Nəqliyyat vasitələrinə ziyan dəyib. İddia edilir ki, reklam lövhəsi nazik bir dəmir parçasından asılı qaldığı üçün aşıb. Vaxtında tədbir görülmədiyi üçün belə bir hadisə baş verib. Xəzər Xəbər xəbər verir ki, avtomobil sahibləri çıxılmaz vəziyyətdə qalıb.

Zərərçəkən avtomobil sahibləri bildiriblər ki, qəza günorta saatlarında baş versə də reklam lövhəsinin aid olduğu şirkət hələ də ortaya çıxmayıb.

Dövlət Reklam Agentliyindən qeyd edilib ki, qurğunun aid olduğu sahibkara xəbərdarlıq edilib. Qeyd edək ki, reklam lövhəsi nazik bir dəmir parçasından asılı qaldığı üçün aşıb. Vaxtında tədbir görülmədiyi üçün bu hadisə baş verib.



## "Ermənistanın KTMT-yə müraciəti bu təşkilatda ajiotaj yaratmır"

Fazil Mustafa: "Dəfələrlə onlara başqa ölkənin sərhədlərini pozmayın, təxribatlar törətməyin deyilib"

(səh.4)

## Kağızın bahalaşması məktəb ləvazimatlarına da təsir edib

Natiq Cəfərli: "Dünən məktəb bazarlığı etmişik və deyim ki, 30-35 faiz qiymət artımı var"



(səh.3)



# Prezident Britaniya səfirliyində olub

## İlham Əliyev Kraliçanın vəfatı ilə əlaqədar başsağlığı verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfirliyində olub, Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetin vəfatı ilə əlaqədar başsağlığı verib.**

APA xəbər verir ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Fergus Ould dövlət başçısını qarşılayıb.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazıb.

Sonra dövlət başçısı səfirlə söhbət edib.

**Prezident İlham Əliyev:** Çox kədərli hadisədir. Amma həyatın qanunlarını heç kim dəyişdirə bilməz. Bir daha Britaniya xalqına başsağlığı vermək istəyirəm.

**Səfir:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Kraliça ilə şəxsən tanış idim. Onunla iki dəfə görüşmüşdüm. Birinci dəfə hələ mən Prezident vəzifəsinə seçilmədən - 1997-ci ildə Bukingem Sarayına dəvət almışdım, Kraliçanın doğum günü münasibətilə. O vaxt SOCAR-ın vitse-prezidenti kimi mənə belə bir dəvət göndərilmişdi. İlk dəfə burada, - təbii ki, orada bir çox adamlar var idi, - sadəcə olaraq tanışlığımız oldu. Ondan sonra da ölkənizə səfərim çərçivəsində Ülyahəzrət Kraliça ilə görüşmək imkanım olmuşdur. Çox xoş təəssüratlar bağışlayan bir insan idi.

Bildiyiniz kimi, bu yaxınlarda bizim nümayəndə heyətimiz mənim adımdan ona Qarabağ atını hədiyyə etmişdi. O da baxmayaraq ki, artıq səhhətində müəyyən problemlər var idi, özü şəxsən o hədiyyəni qəbul etdi. Bu haqda da məlumat var. O, çox gözəl bir insan, böyük xadim və əlbəttə ki, ilk növbədə, Britaniyanın rəmzi olan tarixi şəxsiyyətdir. Azərbaycan xalqı adından bir daha başsağlığı verirəm.

Krala təbrik məktubu da göndərmişəm. Məktubda da göstərdim ki, əminəm, əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək. Çünki bir çox sahələrdə biz doğrudan da çox yaxın əlaqələrə çatmışıq və ümid edirəm ki, yaxın gələcəkdə bu əlaqələr daha da genişlənəcək.

**Səfir:** Çox sağ olun. Kraliçanın vəfatı ilə əlaqədar səfirliyə gəldiyiniz üçün çox sağ olun. Həmçinin Kral Çarlza və Baş nazirə göndərdiyiniz başsağlığı məktublarına görə Sizə dərindən təşəkkür edirəm. Göstərdiyiniz diqqət ölkələrimiz arasında münasibətlərin inkişafında çox əhəmiyyətlidir.

# Bütün məsuliyyət Ermənistanın rəhbərliyinin üzərinə düşür

## Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul edib.**

Görüşdə sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin iki ölkənin sərhədinin Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar müzakirə olundu.

Dövlətimizin başçısı Azərbaycanın Ermənistanın bu təxribatlarına cavab tədbirləri həyata keçirdiyini və baş vermiş təxribatlara görə bütün məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd etdi.

Söhbət zamanı regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin davam etdirilməsinin vacibliyi vurğulandı.

# Azərbaycanın cavab addımları legitim hərbi hədəflərə yönəlib

## XİN-də diplomatik korpusun nümayəndələri üçün brifinq keçirilib





**13 sentyabr 2022-ci il tarixində Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovun və Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin iştirakı ilə Azərbaycanda akkreditə olmuş diplomatik korpusun nümayəndələri üçün brifinq keçirilib.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, brifinq zamanı Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatları nəticəsində yaranmış gərginlik və hərbi təcavüzün qarşısının alınması məqsədilə görülmüş təxirəsalınmaz və adekvat tədbirlər barədə iştirakçılara müfəssəl məlumat verilib. Azərbaycan tərəfindən cavab addımlarının məhdud xarakterli olduğu, legitim hərbi hədəflərə yönəldiyi və mülki əhalinin hədəf alınmadığı bildirilib.

Şərti dövlət sərhədində baş vermiş bu təcavüz aktının son günlər ərzində Ermənistan tərəfindən törədilən hərbi və siyasi təxribatlar zəncirinin bir elementi olduğu qeyd edilib. Belə təxribatlar sırasında Azərbaycan, Ermənistan, Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarının Ermənistan tərəfindən kobud şəkildə pozularaq erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən tam çıxarılmaması, Azərbaycanın ərazilərinin minalanması işinin davam etdirilməsi və şərti sərhədboyu bölgədə hərbiləşmənin artması, nəqliyyat kommunikasiyalarının açılmasına maneçilik törətməsi və sülh prosesinə qarşı destruktiv addımlar atması, sülh müqaviləsi üzrə konkret danışıqların başlanmasına dair Azərbaycan tərəfinin təkliflərinə qarşılıq verməməsi və s. pozuntular diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən yenidənqurma işləri aparılan və külli miqdarda sərmayələr qoyulan bir zamanda, hərbi gərginlik zonasına yaxın əraziyə - Zəngilan rayonunun Ağalı kəndinə bir qrup məcburi köçkün ailəsinin geri qayıtması şəraitində regionda hərbi gərginliyin Azərbaycan tərəfinin marağında olmadığı vurğulanıb.

Brifinqin yekununda iştirakçıların mövqeyi dinlənilib və verilən suallar cavablandırılıb.

**Aygün**

# Ceyhun Bayramovun BMT Baş katibinə məktubu Baş Assambleyanın sənədi kimi yayılıb




**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun cari ilin 23 avqust tarixində BMT-nin Baş katibi Antonio Quterreşə ünvanlandığı Ermənistanın Azərbaycan ərazilərinin minalanması və davam edən digər qanunsuz hərbi fəaliyyətlərinə dair məktubu BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.**

XİN-dən "Şərq"ə verilən məlumata görə, məktubda, Azərbaycanın Laçın rayonu ərazisində 2021-ci ildə Ermənistan Respublikasında istehsal olunmuş küllü miqdarda piyada əleyhinə minaların aşkar edilməsi faktı diqqətə çatdırılır. Bu faktın Ermənistan tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın bir daha kobud şəkildə pozulduğunu göstərdiyi vurğulanır. Ermənistanın sözügedən üçtərəfli bəyanatın 4-cü bəndinə zidd olaraq Azərbaycan ərazilərindən qanunsuz hərbi birləşmələrini çıxarmadığı və hərbi fəaliyyətlərini dayandırmadığı məktubda qeyd olunub.

Məktubda, həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə əhalinin təhlükəsiz yaşayışı naminə genişmiqyaslı bərpa və yenidənqurma işləri apardığı bir dövrdə Ermənistanın qanunsuz hərbi fəaliyyətinin, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması prosesinə, o cümlədən regionda sülh və təhlükəsizliyə ciddi zərbə vurduğu ifadə olunub.

Üçtərəfli bəyanatın imzalanmasından keçən müddətdə 232 nəfərin mina partlayışının qurbanı olduğu barədə faktlar məktubda təqdim edilir.

# Ermənistan sülh prosesini pozdu

## Sərhəddəki təxribatlar dünyada böyük həyəcan doğurub

**"Ermənistan-Azərbaycan sərhədində döyüş əməliyyatlarının dayandırılması və tərəflərin danışıqlar masasına qayıtması mütləqdir". Bu, Avropa İttifaqının Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrellin bəyanatında əksini tapıb. Bəyanatda vurğulanıb ki, bütün qüvvələr bu gərginlikdən əvvəlki mövqelərə qayıtmalı və atəşkəs rejiminə tam riayət edilməlidir:**

"Prezident Şarl Mişel hər iki ölkənin liderləri ilə əlaqə saxlayır və mən bu gün müvafiq ölkələrin xarici işlər nazirləri ilə danışıram. Aİ xalqların mənafeyi naminə təhlükəsiz, firavan və sülh içində olan Cənubi Qafqaz məqsədinə nail olmaq üçün Ermənistan və Azərbaycan arasında dürüst vasitəçi kimi fəaliyyət göstərməyə davam etməyə sadiq qalır. Aİ-nin xüsusi nümayəndəsi Toivo Klaar lazımi deskalasiyanı dəstəkləmək və Ermənistan və Azərbaycan liderləri arasında olan Brüssel dialoqu prosesində növbəti addımları müzakirə etmək üçün dərhal iki ölkəyə səfər edəcək".

### "Azərbaycan heç bir zaman yalnız deyil"

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Azərbaycanın torpaqları 30 ildir işğal altında idi. Diplomatik səylər, Minsk qrupu, beynəlxalq sistem, ya da beynəlxalq aktorlar 30 il işğal altında olan Azərbaycan torpaqlarının qaytarılması üçün heç nə etmədi: "Azərbaycanın səbri tükəndi və erməni təxribatlarına qarşı müharibəyə başladı. Nəticədə Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Sülh üçün imkan yarandı. Amma Ermənistan dünən növbəti dəfə təxribatlar törətdi. Əgər biz regionda tam sabitlik və sülh istəyiriksə, ölkələr arasındakı problemlər öz həllini tapmalıdır. Biz bu məsələdə mühüm rol oynayırıq, amma biz hər zaman can Azərbaycanın yanındayıq, Azərbaycan heç bir zaman yalnız deyil".

ABŞ Dövlət Departamentinin dövlət katibi Entoni Blinken də Ermənistan və Azərbaycanı hərbi əməliyyatları dayandırmağa çağırıb: "ABŞ Ermənistan və Azərbaycan sərhədində baş verən toqquşmalardan dərin narahatdır və buna görə də tərəfləri atəşi dərhal dayandırmağa çağırır". Blinken mövcud vəziyyətlə bağlı Amerika tərəfinin dərin narahatlığını ifadə edib və vəziyyətin daha da gərginləşdirilməsini yolverilməz hesab edib. ABŞ dövlət katibi vəziyyəti sabitləşdirmək üçün səy göstərməyə hazır olduğunu açıqlayıb.

**Azərbaycana yaxın olan ölkələrin liderləri və beynəlxalq təşkilatlar hadisə ilə bağlı bəyanatlar yayıb**



### "Bakı və İrəvanla sıx təmasdayıq"

Rusiya Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan sərhədindəki gərginliklə bağlı bəyanat yayıb. Bəyanatda Rusiya tərəfi baş verən eskalasiyadan narahatlığını bildirib: "Biz hədsiz narahatlığımızı bildiririk, tərəfləri vəziyyəti daha da gərginləşdirməkdən çəkinməyə və atəşkəsə ciddi riayət etməyə çağırırıq, Bakı və İrəvanla sıx təmasdayıq. Moskva vaxtı ilə saat 9.00-dan etibarən atəşkəslə bağlı Rusiyanın vasitəçiliyi nəticəsində əldə olunan razılaşmanın tam şəkildə yerinə yetiriləcəyini gözləyirik. Bütün mübahisəli problemlər müstəsna olaraq siyasi və diplomatik yollarla, sərhəd məsələlərində isə Rusiyanın məşvərətçi yardımı ilə Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə ikitərəfli komissiyanın işi çərçivəsində həll edilməlidir".

Gürcüstan Azərbaycanla Ermənistan arasında gərginliyin azaldılması istiqamətində vasitəçiliyini təklif edib. Bu barədə hakim "Gürcü arzusu" partiyasının sədri İrakli Kobaxidze jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Gürcüstan vasitəçiliyə hazırdır: "Biz bunda maraqlıyıq. Əgər Gürcüstan vasitəçi olsa, biz gərginliyin azaldılması üçün öz töhfəmizi verəcəyik".

### Şarl Mişel Azərbaycan-Ermənistan sərhədindəki gərginliyə münasibət bildirib

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan-Ermənistan sərhədindəki gərginliyə münasibət bildirib: "Azərbaycan-Ermənistan sərhədində döyüşlərin getməsi ilə bağlı xəbərlər son dərəcə narahatedicidir". O qeyd edib ki, tam və dayanıqlı atəşkəs şərtdir: "Sülh və sabitliyin alternativi mövcud deyil. Bunu təmin etmək üçün diplomatiyanın alternativi yoxdur. Mən həm Azərbaycan Prezidenti İlham Əliyevlə, həm də Ermənistan Baş naziri Nikol Paşinyanla əlaqə saxlayıram. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar danışıqlar üçün Bakı və İrəvana gedəcək".

### Avropa Şurası sərhəddəki gərginliklə bağlı bəyanat yayıb

Avropa Şurası sərhəddəki gərginliklə bağlı bəyanat yayıb. Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriçin bəyanatında deyilib ki, Azərbaycan-Ermənistan sərhədində hərbi eskalasiya barədə məlumatlar böyük həyəcan doğurur: "Hər iki ölkənin liderləri arasında bir müddət əvvəl baş vermiş birbaşa təmaslar ümidverici idi və davam etdirilməlidir. Avropa Şurası dinc tənzimləmənin nail olunmasına yol açacaq bütün səylərə kömək göstərməyə hazırdır".

Fransanın "La Gazette" xəbər portalında da məqalə dərc olunub. Məqalədə bildirilib ki, birinci dəfə deyil ki, hər iki ölkə arasındakı sərhəddə Ermənistan tərəfindən bu kimi təxribat törədilir. Ermənistan silahlı qüvvələri tərəfindən bu cür gərginlik yaratmaqda əsas məqsəd gələcək danışıqlar prosesində güc mövqeyinə çevrilməkdir. Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən məqalədə həmçinin vurğulanıb ki, Ermənistan bu kimi əməlləri ilə eləcə də Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarda həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginlik mühitini saxlamaq məqsədini güdür: "Azərbaycanın ərazi bütövlüyünün tanınmasından imtina edən millətçi ekstremistlər tərəfindən idarə olunan Ermənistan hökuməti, görünür, Rusiya və Fransanın dəstəyinə ümid bəsləyərək, özünü bitib-tükənməyən qətliam prosesinə cəlb etməyə imkan verir. Onu da əlavə edək ki, Nikol Paşinyan atəşkəs bərpa edildikdən sonra dərhal bu iki ölkənin liderlərinə zəng edib. Artıq sülh danışıqlarının bu cür yubadılmamasının və regionda Ermənistan da daxil olmaqla bütün region ölkələrinin xeyrinə olacaq sabitliyin bərpa olunmasının vaxtı çatıb".

### NATO Ermənistan-Azərbaycan sərhədindəki gərginlikdən narahatdır

NATO Baş katibinin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə köməkçisinin müavini, Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina tviterdə yazıb ki, NATO Ermənistan-Azərbaycan sərhədində baş verən toqquşmalardan narahatdır: "Ermənistanla Azərbaycan sərhədində baş verən toqquşmalardan çox narahatıq. NATO hərbi əməliyyatları dərhal dayandırmağa və gərginliyi azaltmağa çağırır".

**İsmayıl**



İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında övladı üçün məktəb bazarlığı etdiyini və qiymət artımına şahid olduğunu dedi:

- Dünən məktəb bazarlığı etmişik və deyim ki, 30-35 faiz qiymət artımı var. Problem yerli istehsalın çox az olmasıdır. Daxili istehsal az da olsa var, lakin xammal idxal olunur deyə, bu, qiymətlərə öz təsirini göstərir. Hökumət kağıza tətbiq olunan vergini ləğv etdi. Amma xammalın maya dəyərində artım var axı. Vergidən azadolma tətbiq edilməsəydi, görün qiymətlər necə qalxacaqdı. Bununla belə, xammalın maya dəyərindəki qiymət artımı qiymətləri sabit saxlamağa imkan vermir. Dolların məzənnəsi qalxdımı, bu,

# Kağızın bahalaşması məktəb ləvazimatlarına da təsir edib

## Natiq Cəfərli: "Dünən məktəb bazarlığı etmişik və deyim ki, 30-35 faiz qiymət artımı var"

**Məktəbli formaları problemi müvəqqəti də olsa həll edildi, indi qalır məktəb ləvazimatı. Ümumi qiymət artımı fonunda təbii ki, məktəb ləvazimatlarının da qiymətində az-çox artım var.**

Rusiya-Ukrayna müharibəsinə görə kağızın qiymətindəki artım digər məktəb ləvazimatlarının qiymətinə də mənfi təsir edib. Mağaza müdirləri kağızın qiymətindəki artımı əsas gətirərək digər məhsulların da qiymətində artım edir. Məsələn, yerli istehsal olan 12 vərəqli dəftər ötən il 10 qəpik idi, bu il 15 qəpikdir, 40 vərəqli dəftərin qiyməti keçən il 25 qəpik idi, bu il 40-45 qəpikdir. 96 vərəqlilər isə xaricdən idxal olunur, onların qiyməti də artaraq 1,20-1,50 manata çatıb. Qələmlərin qiyməti müxtəlifdir, baxır ölçüyə, keyfiyyətə. 20-30 qəpiyə də qələmlər var, 1 manat, 2 manat və daha baha olanı da. Rəngli qələmlər də həmçinin. Qiymətlər 1,50 başlayıb 15 manatadək qalxır. Xətkeşlər 30 qəpik-1,50 manat, pozanlar - 30 qəpik-1,50 manat, plastilinlər - 1-15 manat, pərgar dəstləri qiyməti 2-6 manat arasında dəyişir, flomasterlərin də qiyməti qalxıb. İçərisində 12 ədəd olan sadə qara karandaşların qutusu 70 qəpikdir, bəziləri iki manatadır. Rəsm albomlarının qiyməti 25 qəpik-3 manat, dəftər üzlüklərinin - 13, kitab üzlükləri 20-25 qəpik, qələmyonanlar 15-70 qəpik, fırçalar 1-3

"Adi qələmlər, yapışqan, hansı ki onların istehsalında neft, yanacaq məhsullarından istifadə edilir, onların da istehsalı təşkil edilmir. Hamısını xaricdən alırıq"

manatdır. Ən bahalı mal isə məktəbli çantalarıdır. 30 manatdan başlayıb 60-80 manatadək olan çantalar var. Su, yemək qabları, termosların qiyməti modelinə, keyfiyyətinə, saxlama müddətinə, paslanıb-paslanmamasına görə dəyişir - 6-20 manat aralığındadır. Endirim kampaniyaları elan edən mağazalar da var. Amma belə yerlərdə keyfiyyət adətən aşağı olur. Həm də endirimlər o qədər cüzidir ki, ailə büdcəsinə əsaslı təsir göstərmir.

Azərbaycan manatının dollarla ifadəsinə də təsir edir, nəticədə qiymətlərə də həmçinin. Dünyada gedən qlobal proseslərə rəğmən yerli istehsalı təşkil etmək, artırmaq mümkündür. Ən primitiv məhsulları da biz xaricdən idxal edirik. Adi qələmlər, yapışqan, hansı ki onların istehsalında neft, yanacaq məhsullarında istifadə edilir, onların da istehsalı təşkil edilmir. Hamısını xaricdən alırıq. Az qalırlar, dərslikləri də xaricdə istehsal edib gətirsinlər. Yaxşı ki, heç olmasa dərsliklər ölkədə nəşr olunur. Məsələ belədir, ümumi inflyasiya fonunda bütün məhsullarda qiymət qalxır. Ərzaq satan məktəb ləvazimatı alır, məktəb ləvazimatı satan da ərzaq alır. Qiymət artımı birtərəfli ola bilməz. Bu, spiralvari prosesdir. Necə ki sürücülər deyir, "biz də çörək yeyirik, ailəmizə də bazarlıq edirik", bütün sahələrdə belədir. Hansısa bir məhsulda qiymət artımı baş verdisə, avtomatik olaraq digər məhsulların qiymətində də artım baş verir.

**Məlahət Rzayeva**

# Minatəmizləmə problemi ilə bağlı təxirəsalınmaz işlər görülməlidir

## ANAMA-nın İdarə Heyətinin sədri ABŞ-da BMT-nin Mina Fəaliyyəti Xidmətinin direktoru ilə danışıqlar aparıb



**Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanovun rəhbərlik etdiyi nümayəndə heyəti 2022-ci ilin 12-16 sentyabr tarixlərində Amerika Birləşmiş Ştatlarına işgüzar səfər edib.**

Səfər proqramı çərçivəsində Azərbaycan nümayəndə heyətinin Birləşmiş Millətlər Təşkilatının Mina Fəaliyyəti Xidmətinin (UNMAS) direktoru ilə görüşü keçirilib. Görüş zamanı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud olan mina problemi və onun keçmiş məcburi köçkünlərin qayıdışına yaratdığı maneələr, ANAMA və digər aidiyyəti qurumlarımız tərəfindən minatəmizləmə sahəsində aparılan fəaliyyət, qarşıda duran hədəflər barədə məlumat verilib. İcra edilən genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyəti və əlaqələndirilmiş şəkildə aparılan bərpa və quruculuq işlərinin gedişatı qarşı tərəfdə maraq doğurub, bu istiqamətdə müzakirələr aparılıb. Qeyd edilib ki, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlılığın əyani göstəricisi olaraq Azərbaycanda minatəmizləmə fəaliyyəti məhz bərpa və quruculuq işləri ilə əlaqələndirilmiş həyata keçirilir.

Azərbaycanda minatəmizləmə probleminin ciddiliyi və təxirəsalınmaz işlərin görülməsinin vacibliyi vurğulanıb. BMT-nin Mina Fəaliyyəti Xidməti ilə bu sahədə gələcək əməkdaşlıq imkanları üzrə fikir mübadiləsi aparılıb. Həmçinin bildirilib ki, minalar, sadəcə, insanların sağlamlığına deyil, eyni zamanda regionda sabitlik, sülh və əmin-amanlığa ciddi təhlükə yaradır. Baş verən son hadisələr bunun bariz nümunəsidir.

**İsmayıl**

# Erməni təxribatı Kreml ilə razılaşdırılıb?

## Turab Rzayev: "İstənilən halda Rusiyanın üzərində təzyiqi artırmalıyıq"

**"Azərbaycan-Ermənistan sərhədindəki gərginliklə bağlı Rusiyanın mövqeyi də təəccüblüdür. Çünki münaqişə bitən kimi sərhədlərin delimitasiya və demarkasiya prosesinə nəzarət etdiyi barədə açıqlama verdi. Belə çıxır ki, Rusiya əslində bölgədə sülh yaradıcısıdır. Eyni zamanda iki ölkə arasındakı sərhədlərdə təhlükəsizliyin, sabitliyin yeganə qarantisinin özü olduğunu bildirib".**

*"Şərq" xəbər verir ki, bu sözləri siyasi şərhçi Turab Rzayev deyib. Onun sözlərinə görə, digər şübhəli məqam münaqişə bitər-bitməz Robert Köçəryan və Serj Sarkisyan cütlüyünün Ermənistandakı keçmiş "Qarabağ klanı"nın qalıqları barədə açıqlamaları cəmiyyətə yayıldı:*

"Aydın oldu ki, sanki öncədən bilirlərmiş kimi, buna hazırlaşıblar. Bütün baş verənlər Rusiya ilə razılaşmanın olduğunu göstərir. Həmçinin rəsmi Moskva bu təxribatın arxasında duran imic formalaşdırır. Paşinyanın ən son məhz Vladivostokda Rusiya Prezidenti Vladimir Putinlə görüşdüyünü nəzərə alsaq, deməli, müəyyən müzakirələr, razılaşmalar əldə edilmiş ola bilər. Lakin Paşinyanın son açıqlamaları, yəni



"Rəsmi Moskva sülhməramlıların yerləşdiyi bölgədə təxribatların birdəfəlik qarşısını almalıdır"

KTMT-dən lazımi yardım alınmazsa, təşkilatdan çıxmaları, Ermənistanın Qərbə və ya digər ölkələrə müraciət etməsi ilə bağlı bizə məlum olmayan məqamlar var. Paşinyan sanki Ermənistandan rus qoşunlarını çıxarmaq istəyirmiş kimi qəribə bir vəziyyət yaradır. Düşünürəm ki, istənilən halda Rusiyanın üzərində təzyiqi artırmalıyıq.

Rəsmi Moskva sülhməramlıların yerləşdiyi bölgədə təxribatların birdəfəlik qarşısını almalıdır. Çünki provokasiyaların baş verməsində Kreml məsuliyyət daşıyır. Eyni zamanda rəsmi Moskva sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı əlində olan xəritələri verməlidir. Vaxtaşırı Rusiya Müdafiə naziri Sergey Şoyqu Azərbaycanın sülhməramlıların yerləşdiyi əraziyə atəş açdığı barədə məlumatlar yayır. Eyni şəkildə də biz Rusiyanın açıq formada Ermənistanın Azərbaycana təcavüzünü, təxribatların qınayan bəyanatlarını gözləyirik. Əks halda Rusiya öz neytrallığını, sülh yaratma missiyasını bir növ itirmiş hesab olunacaq".

*Qeyd edək ki, Rusiya XİN Azərbaycan və Ermənistan sərhədindəki gərgin vəziyyətlə bağlı bəyanat yayıb. Rəsmi məlumatda göstərilir ki, Rusiya Federasiyası Ermənistan və Azərbaycan sərhədindəki durumun kəskin şəkildə gərginləşməsindən narahatdır.*

**Sücayət Mehti**

# Ermənistanın çırpıntıları əbəsdir

## KTMT-yə üzv ölkələr Azərbaycanla əlaqələrini pozmayacaq

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Katibliyi Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsini şərh edib. KTMT-nin bəyanatında qeyd olunub ki, 2022-ci il sentyabrın 13-nə keçən gecə Ermənistan və Azərbaycan sərhədində ağır silahlar və PUA-ların istifadəsi ilə toqquşmalar olub:**



"Biz güc tətbiqini qəbuledilməz hesab edirik. Ziddiyyətlərin həlli üçün Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli bəyanatlarında əksini tapmış müstəsna olaraq siyasi və diplomatik üsullardan, həmçinin razılaşmalardan istifadə edilməlidir. Bu il sentyabrın 13-də saat 09:00-dan etibarən təmas xəttində atəşkəs əldə edilməsində Rusiya Federasiyasının vasitəçilik səylərini yüksək qiymətləndiririk. Ermənistan tərəfinin yardım üçün KTMT-nin Kollektiv Təhlükəsizlik Şurasına müraciəti ilə əlaqədar olaraq, Qərargah yaranmış vəziyyətin nizamlanması üçün KTMT mexanizmlərinin aktivləşdirilməsi üzrə iş təşkil edib". Məlumat üçün bildirək ki, Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycan-Ermənistan sərhədində yaşanmış insidentdən sonra növbəti dəfə hərbi bloka müraciət edib. Paşinyan Azərbaycan Ordusunun Ermənistan sərhədlərinə "təcavüzünü" iddia edərək təşkilatdan prosesə müdaxilə etməsini istəyib.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, hazırda geosiyasi şərait Azərbaycanın maraqlarına cavab verir. Analitikə görə, Rusiyanın Ukraynada məğlubiyyəti Ermənistanın ciddi cəzalandırılmasına şərait yaradır:** "Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına davamlı üz tutsa da, KTMT yekdil qurum deyil. Həm də təşkilatın aparıcı ölkəsi olan Rusiya Ukraynada çətin durumla üzləşib. Quruma üzv olan ölkələrlə Azərbaycanın yüksək siyasi əlaqələri var. Məhz Ermənistana görə üzv ölkələr Azərbaycanla münasibətləri heç vaxt pozmayacaq. Ona görə də KTMT hər dəfə Ermənistanın sorğusuna mənfi cavab verir. Sadəcə, bəyanat verməklə işini bitmiş sayır. Blokun aparıcı üzvü Rusiya öz mövqeyini açıqlayıb və yeganə çıxış yolunun danışıqlar masası, üçtərəfli bəyanat olduğunu vurğulayıb. O səbəbdən KTMT-nin proseslərə hərbi müdaxiləsi qeyri-mümkündür".

**İsmayıl Qocayev**

# Kreml imkan verməz

## Ermənistan Rusiyadan başqa heç bir ölkədən silah, hərbi texnika ala bilməz

**Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı Qərb ölkələrindən şikayətlənib. Baş nazir iddia edib ki, Ermənistan silah alınması üçün bütün maliyyə imkanlarına sahibdir, lakin elə ölkələr var ki, İrəvana silah satmaq istəmirlər. Onun sözlərinə görə, silah alınması maliyyə, siyasi, texniki və nəqliyyat daxil olmaqla 4 komponentdən ibarətdir:**



"Maliyyə baxımından problem olmasa da, siyasi problemlər mövcuddur. Elə ölkələr var ki, bizə silah satmağa hazır deyillər. Elə ölkələr də var ki, bunu etməyə hazırdırlar, lakin onların lazımi silahı yoxdur". Paşinyan daha bir problemə toxunub: "Ermənistanın dənizə çıxışı olmadığından hərbi texnikanı bu yolla ölkəyə gətirmək mümkün deyil".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu vurğulayıb ki, Ermənistan hakimiyyəti müxtəlif dövlətlərdən silah və hərbi texnika almaq üçün siyasi qərar verməklə iqtidarında deyil.**

**Ekspertin sözlərinə görə, Kreml Ermənistana imkan verməz:** "İrəvan Rusiyadan başqa digər ölkələrdən istədiyi sayda silah və hərbi texnika ala bilərmi? Rusiya silahın və hərbi texnikanın Ermənistana bir hissəsini pulsuz verib, İrəvan digərlərini Kremlin ayırdığı kreditlə əldə edib. Rusiya Ermənistan üçün bu cür münbit şərait yaradarkən İrəvan başqa hansı ölkədən silah və hərbi texnika almaq istəyə bilər? Rusiyadan başqa heç bir ölkə Ermənistana nə pulsuz silah verər, nə də silah almaq üçün kredit ayırar. Paşinyanın "dənizə çıxışı olmayan Ermənistanın hərbi texnikanı ölkəyə çatdırılması çətindir" cümləsi də diqqəti cəlb edir. Rusiya Ermənistana silahı bir neçə yolla çatdırır. Xəzər dənizi və İran üzərindən quru yolla, Mərkəzi Asiya və İranın hava sahəsi üzərindən, o cümlədən Gürcüstanın hava sahəsindən istifadə edərək silahlar Ermənistana yollanılır. Paşinyan isə ona işarə edib ki, silahların bu yollarla çatdırılmasında çətinliklər var".

**İsmayıl**

**Dünya 96 yaşında dünyasını dəyişən İngiltərə kraliçasına yas saxlayır. Lakin II Yelizavetanın ölümündən sonra susqunluq nümayiş etdirən İran dövlət televiziyasında üzüntü kəlməsi eşidilmir, əksinə canlı yayımda Kraliça "bəşər tarixinin ən böyük cinayətkarlarından biri" elan edilib.**

Britaniyanın ən uzun müddət hakimiyyətdə olan monarxının ölümündən sonra dünyanın hər yerindən başsağlığı mesajları gəlməkdədir. Bir çox dünya liderləri kral ailəsinə başsağlığı versə də, İranda dünənə qədər sükut hökm sürürdü.

Tehran ötən həftə 96 yaşlı kraliçanın ölümündən sonra ictimaiyyətə açıqlama verməməyi hədəfləmişdi. Ancaq İranda dövlət televiziyasının verdiyi şərh bu sükutdan sonra bıçaq kimi kəsdi. Dövlət televiziyası kraliçanın ölümü "dünyanın məzlum insanları üçün yaxşı xəbər" kimi yozdu.

İranın dövlət televiziyası Kraliçanı "bəşər tarixinin ən böyük cinayətkarlarından biri" adlandırıb və hətta onu Adolf Hitlerlə müqayisə edib.

İranın Birinci kanalında Tehran Universitetinin akademiki Foad İzadi deyib: "Ola bilsin ki, taxtda oturduğu 70 ili nəzərə alsaq, onu Hitlerlə eyni siyahıya salmaq lazımdır. Üzülməliyik ki, bu insan mühakimə olunmadan, cəzalandırılmadan, törətdiyi cinayətlərin əvəzi ödənilmədən dünyasını

# İran televiziyası Kraliçanı təhqir etdi

## "O, bəşər tarixinin ən böyük cinayətkarlarından biridir"



dəyişib.

Foad İzadi hökumətin nəzarətində olan PressTV-də ingilis dilində yayımlanan verilişdə də aşağıdakı ifadələrdən istifadə edib:

- Kraliça məşhur imperialist, müstəmləkəçi, hərbi cinayətkardır, Britaniya ordusunun dünya miqyasında təcavüzü onun adına bağlıdır. Britaniya silahlı qüvvələri

Kraliçanın silahlı qüvvələridir. Beləliklə, ötən əsrdə bir çox vəhşiliklərdə iştirak etmiş bir ovuc insan var: Hitler, bəzi Amerika prezidentləri bu siyahıdadır, məsələn, Britaniya İmperiyasından olan Kraliça Elizabet var. Ölənlərin sayı milyonlara çatır və Kraliça buna cavabdehdir. Ötən əsrin ən qəddarlarından biri ədalət bərqərar olunmadan öldü".

*Qeyd edək ki, Kraliça Elizabet 1961-ci ildə İrana səfər edib. Ovaxtkı İran şahı Məhəmməd Rza Pəhləvinin xanımı Fərəh Pəhləvi ilə birlikdə İsfahan, Şiraz və Persepolisdə olub. Kral III Çarlz 2003-cü ildə Bamın cənub-şərqində on minlərlə insanın həyatına son qoyan dağıdıcı zəlzələdən sonra humanitar missiya ilə İranda olub.*

**Turan**



# Şanlı Ordumuz düşməni peşman edəcək

## Təxribatlardan sonra Paşinyanın bütün ölkələrə yalvarışları cavabsız qalıb

İsmayıl Qocayev

**Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib.**

Müdafiə Nazirliyindən verilən məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin diversiya qrupları Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Paralel olaraq Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki mövqelərimiz müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Nəticədə silahlı qüvvələrimizin şəxsi heyəti arasında itkilər olub, hərbi infrastruktura ziyan dəyib. Azərbaycan Ordusunun operativ cavab tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin təxribatının və döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısı alınıb. Rəsmi məlumatda o da qeyd olunub ki, Ermənistan tərəfindən, guya, Azərbaycan Ordusunun mülki əhalini, obyektləri və infrastrukturu hədəfə alması barədə yayılan məlumatlar həqiqəti əks etdirmir. Bunların hamısı Ermənistan tərəfinin yaydığı növbəti dezinformasiyadır. Ümumiyyətlə, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatları sistematik xarakter daşıyırdı. Eyni zamanda, Ermənistanın sərhəd boyunca hərbiləşməni artırması, bölgədə ağır texnika və iri çaplı silahlar yerləşdirməsi düşmənin genişmiqyaslı hərbi təxribata hazırlaşdığını göstərirdi. İrəvanın normallaşma prosesini müxtəlif bəhanələrlə ləngitməsi Ermənistanın sülhdə maraqlı olmadığını və prosesə zərbə vurmaq məqsədlərini nümayiş etdirirdi. Baş nazir Nikol Paşinyanın gecə boyunca müxtəlif ölkələrin liderlərinə zəng edərək onlardan yardım istəməsi Ermənistanın nə qədər aciz və rəzil durumda olduğunu bir daha təsdiqlədi. Ermənistan Baş naziri Nikol Paşinyan ilk növbədə Rusiya Prezidenti V.Putinlə danışıb və ənənəvi olaraq sərhəddəki vəziyyətlə bağlı Putinə şikayətlənib. Daha sonra Fransa rəhbəri Emmanuel Makrona zəng edib. Paşinyan sərhəddə baş verən döyüş toqquşmaları ilə bağlı Makrona da şikayətlənib və "dərin narahatlığını" çatdırıb. Prezident Makron isə gərginliyi daha da artırmağı qəbuledilməz hesab edib və vəziyyəti sakitləşdirməyin vacibliyini vurğulayıb. Hadisələrdən sonra Təhlükəsizlik Şurasının iclasını çağıran Paşinyan vəziyyətin kifayət qədər gərgin olduğunu, heç bir ölkənin onlara yardım etmədiyini vurğulayaraq, səhərə qədər davam etmiş hərbi toqquşmada 49 hərbçisinin öldüyünü açıqlayıb. Lakin baş nazir itki sayının yekun olmadığını əlavə edib. "Caliber"in məlumatına görə, erməni tərəfinin itkiləri 150-200 nəfər arasındadır.

> Paşinyan Vladivostokda faktiki olaraq bu avantüranı anons etmişdi. Azərbaycan Ordusu Ermənistanın təxribatlarına cavab olaraq, qısa zamanda və peşəkarlıqla üzərinə düşən vəzifələri yerinə yetirdi

**Hərbi ekspert Ədalət Verdiyev deyib ki, Ermənistanın davam edən təxribatları Azərbaycan Ordusunu ona adekvat və daha təsirli cavab verməyə məcbur etdi. Ekspert bildirib ki, Ordumuz düşmənin təxribat törədən bölmələrinin yerləşdiyi mövqelərinə və atəş mövqelərinə cavab zərbələri endirib:** "Endirilən zərbələr nəticəsində düşmən ciddi itkilərə məruz qalıb. Düşmənin bir neçə döyüş texnikası, o cümlədən radiolokasiya stansiyası, S-300 kompleksləri məhv edilib və onlarla canlı qüvvə itkisi mövcuddur. Ordumuzun bir neçə yeni mövqe əldə etdiyi də şübhəsizdir. Eyni zamanda düşmənin Qafanda yerləşən bir hərbi hissəsi də darmadağın edilib".

**Millət vəkili Razi Nurullayev də bildirib ki, Ermənistan xoş rəftardan anlamır və biz onları sülhə məcbur etməliyik. Deputatın sözlərinə görə, Ermənistanın təxribatları dayanmır və üçtərəfli bəyanatda üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək istəmir:** "Bu günə qədər Ermənistan silahlı birləşmələri Qarabağda qalmaqda davam edir. Ermənistan Qarabağda yaşayan ermənilərlə ayrıca çəkilmiş keyfiyyətli yol vasitəsilə gediş-gəliş edir. Naxçıvana quru və dəmiryolu dəhlizi açacağı ilə bağlı üzərinə götürdüyü öhdəliklərdən isə imtina edir. Azərbaycanın israrlı sülh təkliflərinə qarşı etinasız davranır. Hər gün məntiqsiz və mümkün olmayan yeni şərtlər irəli sürür. Ona görə də Ermənistanın təxribatlarına layiqincə cavab verməliyik və ordumuz bunu edir. Artıq Ermənistana ərazi iddiası irəli sürmək zamanıdır. Zəngəzur və Göyçə keçən əsrin əvvəllərində Azərbaycandan alınaraq Ermənistana verilib. Yüz minlərlə vətəndaşımız evindən, yurdundan didərgin düşüb. İndi ora qayıtmaq zamanıdır. Zəngəzur və Göyçə Azərbaycandır və biz ora dönməliyik. Naxçıvana Ermənistandan dəhliz istəməli deyilik, tarixi torpağımızı geri qaytarıb Azərbaycanı Naxçıvanla quru sərhədi vasitəsilə birləşdirməliyik. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini nəyin bahasına olursa-olsun qoruyacaq".

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov bəyan edib ki, ötən ayın sonlarından başlayan və son günlər daha da intensivləşən erməni təxribatlarının daha da azğınlaşacağı gözlənilən idi. Lakin Azərbaycan Ordusu güclüdür və düşməni necə cəzalandırmağın yollarını yaxşı bilir:** "Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulması və döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısının alınması məqsədilə Ordumuz tərəfindən bütün zəruri tədbirlər görülüb. Biz Ordumuza güvənirik və qəhrəman əsgərlərimizin, zabitlərimizin yanındayıq. Şanlı Ordumuz düşməni peşman edəcək və bu təxribat Ermənistana baha başa gələcək. Effektiv cavab tədbirlərimiz nəinki Ermənistanın hərbi-siyasi rəhbərliyini, ümumiyyətlə, bütövlükdə erməni toplumunu qorxutmalı və ayıltmalıdır. Gündən-günə revanşizm ovqatına köklənən erməni cəmiyyətini ağıllandırmağın və reallıq hissinə qaytarmağın başqa yolu yoxdur. Biz antiterror əməliyyatı keçirməyə məcburuq. Getdikcə daha da aqqresivləşən, yenidən militarist əhval-ruhiyyəyə təslim olan Ermənistan dövlətini və erməni cəmiyyətini sülhə məcbur etməyin yolu məhz güc tətbiqindən keçir. Bəli, Ermənistan sülhə məcbur edilməlidir. Bəzi ölkələr kimi biz də denasifikasiya və demilitarizasiya tədbirləri həyata keçirməliyik. Bizim də buna ixtiyarımız çatır. Çünki 10 noyabr razılaşmasının ziddinə olaraq hələ də ərazilərimizdə qalmaqda davam edən Ermənistanın hərbi birləşmələrini və separatçı-terrorçu dəstələri tərksilah etməyin, neytrallaşdırmağın başqa yolu yoxdur. Təcrübə göstərir ki, revanşizmi yalnız güc tətbiqi ilə ram etmək mümkündür".

# "Ermənistanın KTMT-yə müraciəti bu təşkilatda ajiotaj yaratmır"

## Fazil Mustafa: "Dəfələrlə onlara başqa ölkənin sərhədlərini pozmayın, təxribatlar törətməyin deyilib"



**Ermənistan tərəfi sentyabrın 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində özünün törətdiyi genişmiqyaslı təxribatlarla bağlı KTMT və BMT Təhlükəsizlik Şurasına müraciət edib.**

Bu barədə Ermənistan Nazirlər Kabinetinin mətbuat xidməti məlumat yayıb. Məlumatda qeyd olunub: "Hökumət məsələ ilə bağlı artıq Rusiyaya, KTMT-yə və BMT Təhlükəsizlik Şurasına müraciət edib. Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilənin müddəalarının həyata keçirilməsi üçün Rusiya Federasiyasına rəsmi müraciət etmək barədə qərar qəbul edilib".

**Millət vəkili Fazil Mustafa Ermənistanın KTMT-yə müraciəti ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, rəsmi İrəvan hazırda "başını itirib", hara, kimə müraciət edəcəyini bilmir:** "Bu cəhdlər boş işdən başqa bir şey deyil. Ermənistan KTMT-yə belə bir müraciət etsə, təbii ki, bu təşkilat ona başqasının torpağından çıxmalı olduğunu deyəcək. KTMT ölkələri bu məsələdəki mövqelərini artıq 44 günlük İkinci Qarabağ savaşında ortaya qoyublar. Yeni bir stiuasiya yoxdur. Məsələ KTMT-də hər hansısa bir ajiotaj belə yaratmır. O, bu məsələyə sırf Ermənitana aid olan məsələ kimi baxır. Dəfələrlə onlara başqa ölkənin sərhədlərini pozmayın, təxribatlar törətməyin deyilib. Əgər bu qaydalara əməl etməsələr, bundan sonra da belə problemlərlə qarşılaşacaqlar. Biz hər an münaqişənin alovlanma imkanı olan bir bölgədəyik. Ona görə də heç vaxt ayıq-sayıqlığımızı itirməməli, torpaqlarımızı qorumağa çalışmalıyıq".

Günəş Mərd

# Düşmənin istənilən təxribatlarına cavab gecikməyəcək

## "Ermənistan və ona dəstək verən qüvvələr sülh istəmirlər"



**"Dünən axşam Ermənistan-Azərbaycan dövlət sərhədində baş verənlər vəziyyətin artıq dözülməz olduğunu göstərdi. Ermənistanın sülh prosesindən uzaqlaşmaq istədiyini, prosesdə maraqlı olan digər tərəflərin Azərbaycana qarşı baş verən təxribat hallarında səssiz qalmaq istədiyini aydın şəkildə ortaya qoydu".**

*Bu sözləri "Şərq"ə açıqlamasında "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov deyib.*

Politoloqun fikirlərinə görə, Ermənistan və ona dəstək verən qüvvələr regionda sülhün olmasını istəmədiklərini isbatladılar: "Ermənistan tərəfinin gah sülh danışıqlarına tezliklə başlamaq barəsində verdiyi açıqlamalar, gah da mütəmadi şəkildə təxribat hallarını artırması dünyanı çaşdırmaq niyyətlərindən xəbər verir. Ortada real sülh müqaviləsi olmalıdır. Reallaşan görüşlər nəticəsində əldə edilmiş razılıqlar icra edilməlidir. Doğrudur, Azərbaycan Prezidenti cənab İlham Əliyev Ermənistana dəfələrlə sülh çağırışları edib. Buna rəğmən Ermənistanın tutduğu təcavüzkar siyasət hələ də davam edə bilər. Şübhəsiz, dünyanın ən peşəkar ordularından birinə çevrilən Azərbaycan Silahlı Qüvvələri düşmənin istənilən təxribatına adekvat cavab verir.

Sonuncu təxribat zamanı düşmənin hərbi hissəsinin, eləcə də iki "S-300" raket kompleksinin sıradan çıxarılması və bu kimi hallar Azərbaycan Silahlı Qüvvələrinin gücünü ortaya qoymuş olur.

Ermənistan tezliklə Azərbaycanın şərtlərini qəbul edib, sülh danışıqlarına başlamalıdır. Maraqlı güclər regionda sülhün təmin olunmasına nail olmalıdır.

Azərbaycanın sülh çağırışları təşəbbüslərinə dərhal dəstək verilməlidir.

Sözügedən halların həyata keçilməsi regionda sülhün təmini baxımından önəmli əhəmiyyət daşıyır".

Aygün Tahir

# "Sputnik" Azərbaycanın informasiya məkanında Azərbaycana qarşı...

## "40:4 Ermənistan təmsilçiliyinin xeyrinə.."

**Azərbaycanın rusdilli "Vesti.az" saytı Rusiyanın bir neçə ölkədə nümayəndəliyi olan "Sputnik" Agentliyi ilə bağlı maraqlı araşdırma hazırlayıb. Saytın təqdim etdiyi "Düşmən "Sputnik" Azərbaycanın informasiya məkanında: 40:4 Ermənistan təmsilçiliyinin xeyrinə.." adlı məqalədə "Sputnik"in Azərbaycan əleyhinə fəaliyyət göstərməsi çoxsaylı faktlarla təsdiqlənib.**

Araşırmada qeyd olunub ki, sentyabrın 12-dən 13-nə keçən gecə erməni silahlı birləşmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib. Bu hərəkətlərin qarşısının alınması üçün bölmələrimizin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində toqquşma baş verib, erməni tərəfi xeyli itki verib. Atəşkəs yalnız bu gün saat 9:15-də bərpa olunub: "Bütün bunlar erməni tərəfi üçün tipik davranışdır. Erməni silahlı birləşmələri əldə edilmiş bütün razılaşmalara zidd olaraq, Azərbaycan ordusunun şanlı qələbəsi və Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərinin azad edilməsi ilə başa çatan İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra atəşkəs rejimini dəfələrlə pozub. Son bir ayda dövlət sərhədinin Laçın və Kəlbəcər rayonları istiqamətində Ermənistan silahlı qüvvələrinin təxribatları, bu rayonlarda Azərbaycan ordusunun mövqelərinin müxtəlif silahlardan atəşə tutulması halları intensiv və sistemli xarakter daşıyıb. Sarsıdıcı məğlubiyyətdən sonra özü üçün heç bir dərs almayan Ermənistan dinc Azərbaycanın səbrini sınamaqda davam edir və öz işini yaxşı bilən igid Azərbaycan ordusu döyüş meydanında işğalçıya dönə-dönə növbəti dərsi verir".

"Vesti.az"da gedən məqalədə vurğulanıb ki, təxribat başlayandan bəri, ənənəvi olaraq, erməni KİV-ləri tərəfindən antiazərbaycan təbliğatı aparılıb. Növbəti fiasko ilə üzləşən Ermənistan tərəfi Azərbaycan ordusunun mülki əhaliyə və infrastruktura guya hücumları barədə mətbuatda və sosial şəbəkələrdə məlumat yayaraq, genişmiqyaslı təxribatını gizlətməyə çalışıb: "Bu da işin qaydasındadır: istənilən təcavüzkarın informasiya resursları həmişə iddia edəcəklər ki, günahkar qarşı tərəfdir və onlar "yalnız özlərini müdafiə ediblər". Burada diqqət çəkən başqa bir məqam da var. Rusiya xəbər agentliyi Sputnik-in regional nümayəndəliyi Ermənistan erməni təbliğat maşınının fəaliyyətində fəal iştirak edirdi. Bu saytın xəbər lentini diqqətlə öyrəndikdə görə bilərsiniz ki, Agentliyin "filial"ı bu məsələdə erməni saytlarını belə qabaqlayıb. Gecə saat 01:06-dan bu yazı yazılan vaxta qədər (təxminən 10:50), sayt ümumilikdə 40 xəbər, həmçinin erməni tərəfinin Azərbaycanın guya hərbi əməliyyatların təşəbbüskarı olduğunu iddia edən bəyanatını dərc edib. Agentlik ümidsizcəsinə erməni təcavüzünə haqq qazandırmağa çalışıb. Aydındır ki, "Sputnik-Ermənistan" adi bir erməni saytı kimi fəaliyyət göstərir. Tutaq ki, Agentliyin nümayəndəliklərinə qəbul olunan ölkənin informasiya məkanında dərc olunan hər şeyi dərc etmək tapşırılıb. Belə olan halda "Sputnik"in Azərbaycandakı nümayəndəliyinin xəbər lentinə nəzər salaq. Gördüyümüz odur ki, 00:03-dən sonra Azərbaycanın "Sputnik" informasiya məkanının işinə hansısa "müdaxilə" baş verib. Saytın fəaliyyəti dayanıb, sanki heç bir döyüş olmayıb. Yalnız səhər saat 09:53-də atəşkəsin bərpa olunmasından bir saata yaxın vaxt keçərkən "Sputnik-Azərbaycan" saytı hadisə ilə bağlı ilk xəbəri yayıb. Ümumiyyətlə, səhər saat 11:19-a qədər sayt mövzu ilə bağlı 4 xəbər dərc edib və onlardan biri də Rusiya və Ermənistanın müdafiə nazirlərinin telefon danışığı olması olub. Yəni hətta Agentliyin Azərbaycan nümayəndəliyinin kənarında da ermənipərəst fəaliyyət davam edir. Kimsə etiraz edə bilər ki, ola bilsin, Sputnik-in ofisləri (o cümlədən Azərbaycanda) gecə növbəsində işləmir. Məsələn, həmin "Sputnik-Armeniya"nın monitorinqi göstərir ki, əvvəlki günlərdə saytın rusdilli versiyasının fəaliyyəti daha tez - axşam saat 21:10 radələrində dayanıb və yalnız səhər saat 8-dən sonra bərpa edilib. Yalnız bir "amma" var: "Ermənistan Sputnik"in rəhbərliyi yaranmış şəraiti nəzərə alaraq işçiləri gərginləşdirməyi və bütün gecəni işə cəlb etməyi vacib hesab edirdi".



Saytın araşdırmasında qeyd olunub ki, Rusiya xəbər agentliyinin nümayəndəlikləri tərəfindən açıq-aşkar qərəzlilik var: "Sputnik Agentliyinə Rusiyadakı erməni lobbisinin əsas ruporu olan bədnam təbliğatçı Marqarita Simonyan rəhbərlik edir. "Sputnik"in 44 günlük müharibəni işıqlandırarkən nə qədər qərəzli olduğunu hamımız xatırlayırıq. Orada tez-tez ermənipərəst, reallıqdan uzaq nəşrlərin dərc edildiyinə dair çoxsaylı sübutlar var ki, bu da əslində Qarabağ separatçılarının əlinə keçib. Simonyan kimilərin ucbatından Rusiya mediası Rusiyanın informasiya məkanında erməni siyasi maraqlarına xidmət vasitəsinə çevrilib. Onun təmsil etdiyi, həqiqətən də Ermənistanı vecinə almayan erməni diasporu Qarabağ "münaqişəsindən" qidalandırıcı kimi istifadə edib. Erməni oliqarxları Azərbaycan ərazilərində qeyri-qanuni bizneslə, resursların oğurlanması, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər qaranlıq əməllərlə məşğul olublar".

*Qeyd edək ki, "Sputnik"in aşkar informasiya təxribatları fonunda onun ölkəmizdəki nümayəndəliyinin bağlanması məsələsi uzun müddətdir, hətta ölkə parlamenti səviyyəsində də gündəmə gətirilib. "Sputnik-Azərbaycan"ın "redaktor siyasətində" heç bir dəyişiklik olmadığını nəzərə alsaq, bu məsələyə son qoymağın vaxtı çatdığı aydın olur.*

İsmayıl Qocayev



# Fransa sərhəddəki gərginliklə bağlı BMT-nin iclasını çağırıb

## “Bu gün Qərb Ermənistanı Rusiyanın caynağından qoparıb, öz kolleksiyasını bəzəmək istəyir”

İsmayıl Qocayev

**Fransa Azərbaycan-Ermənistan sərhədindəki gərginliklə bağlı Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının iclasını çağırıb. Görünür, rəsmi Paris bu təşəbbüslə himayə etdiyi Ermənistanı düşdüyü durumdan xilas etməyə, daha doğrusu, beynəlxalq aləmdə ”haqlı tərəf” çıxartmağa çalışır. Əgər Fransa Ermənistanın cəzalandırılmasını istəmirsə, o zaman İrəvanın sülh müqaviləsinə imza atmasını tələb etməlidir.**

Ekspertlərin fikrincə, Fransanın təşəbbüslə çıxış etməsinə səbəb regionda Türkiyə və Azərbaycanın yeni geosiyasi reallıqlar yaratması və Parisin geosiyasi mövqeyinin zəifləməsidir. Lakin rəsmi Paris anlamalıdır ki, Fransanın bu mövqeyi Ermənistanı xilas etməyəcək. Ermənistanın xilası Azərbaycan və Türkiyə ilə sülh şəraitində yaşamaqdır.

**Politoloq Azər Rəşidoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, söhbət yalnız Fransadan deyil, bütövlükdə Qərbin münasibətindən gedir. Analitikin sözlərinə görə, Qərb sivilizasiyası böhran içindədir:** ”Erməni məsələsi Qərbin zəif damarıdır. Şübhəsiz, burada erməni diasporunun güclü fəaliyyəti, xristian təəssübkeşliyi rol oynayır. Lakin görünən odur ki,

***"Ermənistana münasibətdə ABŞ, Avropa Birliyi, Rusiya, hətta şiə mərkəzi olan İran da eyni mövqedədir."***

Qərb üçün Ermənistan vazkeçilməzdir. Bu gün Qərb Ermənistanı Rusiyanın caynağından qoparıb, öz kolleksiyasını bəzəmək istəyir. Bu baxımdan, Rusiya və Qərbin ermənilərə münasibəti eynidir. Müsəlman-türk dünyasının ortasında qalan Ermənistan türk dünyasını parçalamaq üçün vasitədir. Ermənistandan bir kart olaraq həmişə türklərə qarşı istifadə olunub. Bütün bunların fonunda Qərb erməni məsələsinə gələndə ədalətli ola bilmir. Erməni amili Azərbaycanı üstələyir. Erməni diasporu Fransa və Avropa ölkələrinin hökumətlərini Azərbaycan əleyhinə qərarlar qəbul etməyə məcbur etmək iqtidarında deyildi. Məsələ ondadır ki, Fransanın, o cümlədən ABŞ və Avropa İttifaqının regionda öz strateji maraqları var. Bu maraqlar Ermənistanın və ya erməni diasporunun hansısa mənfəətinə, xristian birliyinin hansısa çağırışlarına qurban edilə bilməz. Hamı konkret dövlət maraqlarını müəyyən edir. Fransanın BMT TŞ-yə müraciəti də bu ölkədə cəmiyyətin Ermənistan-Azərbaycan münaqişəsinə əhval-ruhiyyəni nümayiş etdirir. Fransanın maraqları isə ondan ibarətdir ki, Qarabağda regionun inkişafına xidmət edəcək sülh bərqərar olsun. Bütün geosiyasi mərkəzlərin regional layihələrdə iştirakla bağlı maraqları var. İnvestisiya qoymaq, mal, xammal daşımaq, bir sözlə, iqtisadi dividend əldə etmək. Bütün müharibələr və siyasi səylər milli maraqların reallaşması ilə bağlıdır. Lakin Fransa Azərbaycanın güclənməsində də maraqlı deyil. Zəif ölkəyə investisiya qoyanda daha ağır şərtlər diktə etmək olur”.

**A.Rəşidoğluna görə, digər səbəb isə odur ki, Qərbə güclü Türkiyə və Xəzərə çıxışda əsas ölkə olan güclü Azərbaycan lazım deyil:** ”Paris və Brüssel istəyir ki, Türkiyə əvvəllər olduğu kimi, Qərbin vassalı olsun, Azərbaycan demokratik inkişaf yolunu seçib güclənməsin, korrupsiya və işsizlikdən təngə gəlsin ki, 60 milyonluq (30 milyon azərbaycanlı İranda yaşayır) Azərbaycan qurub, türk və müsəlman dünyasının avanqardına çevrilməsin. Ermənistana münasibətdə ABŞ, Avropa Birliyi, Rusiya, hətta şiə mərkəzi olan İran da eyni mövqedədir. Dünyanın reallığı budur. Bu reallıqlar daxilində öz maraqlarımızı qorumağa məhkumuq”.

# "Haqq savaşındayıq"

## Məlahət İbrahimqızı: “Biz heç kəsin torpağına göz dikməmişik”

**Sentyabrın 12-də gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törədib. Azərbaycan Ordusu Ermənistanın təxribatlarına cavab olaraq, qısa zamanda və peşəkarlıqla üzərinə düşən vəzifələri yerinə yetirib.**



Ordumuzun mövqelərini hədəf alan Ermənistanın hərbi nöqtələri, şəxsi heyətlə birlikdə məhv edilib. Əməliyyat yüksək peşəkarlıqla həyata keçirilib. Əməliyyat zamanı Azərbaycan Ordusunun Ermənistan ərazisinə müdaxilə etmək, burada nə isə əldə etmək məqsədi olmayıb. Onun qarşısında belə bir vəzifə də qoyulmayıb. Ona görə də keçirilən əməliyyat miqyasına görə kiçik olub, lokal xarakter daşıyıb. Ordumuz tərəfindən görülən cavab tədbirləri nəticəsində Ermənistan tərəfi 150-200 hərbçi itirib, yaralıların sayı bundan bir neçə dəfə çox olub.

**Məsələ ilə bağlı deputat Məlahət İbrahimqızı ”Şərq”ə danışarkən qeyd edib ki, Azərbaycan Ordusu yenə də düşmənə layiqincə cavab verib, onu susdurub:** ”Bu zərbə bundan sonra düşməni daha da sarsıdacaq. Artıq onlar Azərbaycan torpağında təxribat törətmək istədikdə dəfələrlə düşünməli olacaqlar. Hər kəs gecə saatlarında çarəsiz qalan Ermənistan Baş naziri Nikol Paşinyanın dünya liderlərinin qapısını döyməyinə şahidlik etdi. Nikol heç bir müsbət cavab ala bilmədi. Çünki hər kəs bilir, qanunsuz erməni silahlı birləşmələri öz torpağında deyil. Dünya ermənilərin sülh yoluna gəlməsini istəyir. Azərbaycan buna hər zaman hazır olsa da, Ermənistan sülhdən yayınır. Artıq beynəlxalq ictimaiyyət Azərbaycanın 44 günlük İkinci Qarabağ savaşında çaldığı qələbə ilə barışıb. Onu qəbul edir. Buna görə də rəsmi İrəvanı qaydalara əməl etməyə çağırır. Ermənistandakı revanşist qüvvələr hazırda erməni xalqını uçuruma aparır.

Bunu dərk edən xalq tezliklə ayağa qalxmalıdır. Prezidentimiz beynəlxalq informasiya məkanına indiyə qədər xüsusilə İkinci Qarabağ savaşı dönəmində erməni yalanlarını ifşa edən geniş müsahibələr verib. Elə onları diqqətlə izləmək indiki qarşıdurmada kimin haqlı olduğunu bilmək üçün kifayət edir. Biz haqq savaşındayıq.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. İndi Qarabağda aparılan quruculuq işləri də düşməni bir tərəfdən qıcıqlandırır. Onu hərəkətə gətirir. Amma məcbur bu reallıqla barışmalıdırlar. Bizim tariximizdə heç vaxt məğlubiyyət olmayıb.

Bundan sonra da olmayacaq. Biz heç kəsin torpağına göz dikməmişik. Əksinə, bizə sığınan xalqlara daim qucaq açmışıq. Düşünürəm ki, 12 sentyabr gecəsində Azərbaycan Ordusu düşmənə 44 günlük İkinci Qarabağ savaşını xatırladacaq qədər ağır zərbə vurdu. Onlar yəqin ki, bundan sonra təxribat törətməzdən əvvəl yaxşı fikirləşəcəklər”.

**Günəş Mərd**

# Qaz yataqlarını su krantı kimi bağlamaq olmur

## Rusiya təkcə pul itirməyəcək, həm də qaz itirəcək




**”Rusiya ən ciddi səhvlərindən birini etdi. Avropaya qaz ixracını saxlamaqla özünə daha çox zərbə vurmuş oldu”. Bu barədə iqtisadçı Eldəniz Əmirov deyib. Ekspert bildirib ki, qaz ən təhlükəsiz və ən davamlı valyuta mənbəyi idi: ”Hər yerdən əli üzülən Rusiya əsas valyutanı burdan alırdı.**

Amma iş orasındadır ki, indi Rusiya təkcə pul itirməyəcək, həm də qaz itirəcək. Çünki qaz yataqlarını su krantı kimi bağlamaq olmur. Qaz çıxan bəzi quyuların bağlanılması ümumiyyətlə mümkün deyil. Bəzilərini isə bağlamaq çox təhlükəlidir, böyük faciələr baş verə bilər. Bəzi az təzyiqli quyuları isə bir təhər bağlamaq olsa da, sonradan bu quyuları işə salmaq üçün küllü miqdarda vəsait tələb olunur. Buna görə də Rusiya Avropaya ixrac etdiyi 200 milyard kub metr qazın böyük bir hissəsini indi havaya uçurdub yandırmaq məcburiyyətində qalacaq. Bu qazın hansı həcmdə olduğunu aydın göstərmək üçün deyim ki, Azərbaycanın bir ildə istifadə etdiyi qazın həcmi cəmi 12 mlrd. kub metrdir. İndi təsəvvür edin, Rusiya nə qədər qazı havaya yandırıb uçurtmalı olacaq”.

**İqtisadçı vurğulayıb ki, ən acınacaqlı hallardan biri də odur ki, Rusiyanın 1/3 hissəsi qazsızdır:** ”Amma yenə qaz havaya uçurdulacaq. Ona görə ki, havaya yandırıb uçurduqları qazı Rusiyanın qazsız ərazilərinə vermək üçün heç infrastruktur da mövcud deyil. Görünən odur ki, Rusiyanın bir-birini əvəzləyən yanlış strateji qərarları onu daha da çıxılmaz vəziyyətə salır”.

**İsmayıl**

# Baş nazir söz sahibi deyil

## Paşinyanın komandası vəziyyətə nəzarət edə bilmir

**”Ermənistanda qərarvermə mexanizmi mürəkkəbdir, çünki Paşinyan və komandası vəziyyətə tam nəzarət edə bilmir, tək söz sahibi deyil”.**



**Bu sözləri ReAL Partiyasının sədr müavini Natiq Cəfərli deyib. Partiya rəsmisi qeyd edib ki, Ermənistanda maraq qrupları çoxdur, hələ birini də Kreml ”Vardanyan” adı ilə təzə oyuna salıb:**

”Ermənistan müharibə aparmaq iqtidarında deyil, amma bəlli maraq qrupları, əsas da Moskvadan qidalananlar anlayırlar ki, sülh sazişi indi imzalansa, həm Kremlin təsir rıçaqları azalacaq, həm də onların ”revanş” hekayəsi bitəcək. Ona görə də məqsəd böyük sülh sazişinin qarşısını almaq, zaman qazanmaqdır və Moskvanın təsirlərini saxlamaqdır. Paşinyanın da öz maraqları var. Moskvanın ona güvənmədiyini bilir, amma orbitindən də çıxa bilmir. Hər hadisədə KTMT-yə müraciət edir. Onlar da qarışmır, qarışa bilmir. Paşinyan da öz cəmiyyətinə mesaj verir ki, ”bu ölüvay qurumdan da, Moskvadan da uzaqlaşmaq işində dəstək olsunlar”. Ermənistanda anti-rusiya mövqeyi çox güclüdür və getdikcə güclənir”.

**N.Cəfərli bildirib ki, Azərbaycan sülh istəyir:** ”Biz səmimiyik, sülh və yolların tam açılması, iqtisadi əlaqələrin yaranması bizim strateji hədəfimizdir. Azərbaycan hakimiyyəti və müxalifəti bu məsələdə yekcins mövqedədir. Ona görə də xarici oyunçuların daxili oyunbazlıq qurması mümkün olmur. Azərbaycan hökumətinin xarici siyasətdə qurduğu doğru və çoxşaxəli ittifaqlar onu deməyə əsas verir ki, rəhbərlik impulsiv davranmır. Başqa dövlətin ərazisi ilə bağlı dünyanı tam üstümüzə qaldıracaq, haqlı ikən haqsız duruma sala biləcək addımlar atmırıq. Amma sülhəməcburetmə əməliyyatları da davam edə bilər”.

**İsmayıl**

# Vətəndaşlar ayıq-sayıq olmalıdır

## İbrahim Rüstəmli: ”Cəbhə, əsgər, ordu haqqında informasiyalarla ehtiyatlı davranmalıyıq”

**”İnformasiya təhlükəsizliyi mövzusuna həssas yanaşmaq lazımdır. Azərbaycan hər tərəfdən informasiya təzyiqi altında yaşayır. Silahlı təxribatlar törədilir. Belə bir vaxtda sosial şəbəkə istifadəçilərini təlimatlandırmalıyıq”.**



*Bu fikirləri ”Şərq”ə açıqlamasında informasiya müharibəsindən danışarkən hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant İbrahim Rüstəmli deyib.*

Hərbi ekspert bildirib ki, dünya soyuq silah olan informasiya ilə idarə olunur: ”Bizi öz informasiyamızla vura bilərlər. Bəzi adamlar populizm, şöhrət, bəyənmə xatirinə sonrasını fikirləşmədən cəbhə ilə bağlı məlumatlar yayırlar. Xəbər axını həddən artıq güclüdür. Erməni xüsusi xidmət orqanlarını və bizi istəməyən güclərin əli ilə şəbəkəyə buraxılan məlumatlar var. Cəbhə, əsgər, ordu haqqında informasiyalarla ehtiyatlı davranmalıyıq. Bizim arxa cəbhədə yaydığımız xəbər, ön cəbhədə baha başa gələ bilər.

Təxribat xarakterli informasiyaların yayılması gözləniləndir. Vətəndaşlar ayıq-sayıq olmalıdırlar. Azərbaycanın milli və dövlət maraqlarının qorunması istiqamətində prinsipial mövqe sərgiləməlidilər. Mürəkkəb konstruksiyalı məsələdir. Hər bir informasiya istifadəçisindən hərbi qulluqçularımıza, ordumuza dair məlumatlar paylaşarkən diqqətli yanaşmalarını xahiş edirəm. İnformasiya təhlükəsizliyi üçün analitik düşüncə tərzinə üstünlük verməliyik”.

**İ.Rüstəmli informasiyanı yaymazdan əvvəl düşünüb qərar verməkdən ötrü maraqlı bir həll yolundan söz açıb:** ”Dekart kvadratı” bu məqsəd üçün ən sadə və faydalı üsuldur. Mahiyyəti ondan ibarətdir ki, problemi həll etməyə cəmi 4 suala cavab verməklə başlamaq lazımdır: Bu baş versə nə olacaq? (Bundan müsbət nə qazanacam?) Bu baş verməsə nə olacaq? (Hər şey olduğu kimi qalacaq?) Bu baş versə, nə olmayacaq? (Arzulanan şeyin əldə edilməsinin mənfi cəhətləri baş verməsə, nə olmayacaq? (Arzulanan şeyin əldə edilməməsinin mənfi cəhətləri)”.

**Aygün Tahir**

# Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur

## Məskunlaşma yenidənqurma işlərinə uyğun olaraq mərhələli şəkildə həyata keçiriləcək

**Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsi də başa çatdı. Azərbaycanın ilk ağıllı kəndində həyata keçirilən məskunlaşma ”Böyük Qayıdış”ın tarixi əhəmiyyət kəsb edən başlanğıcıdır. Qeyd edək ki, 1993-cü il işğalınadək bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə, İkinci Ağalıda 60, Üçüncü Ağalıda isə 161 ailə yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352, yəni 1504 nəfərdir.**



Millət vəkili Vüqar Bayramov bildirib ki, Şərqi Zəngəzur ilə yanaşı Qarabağda aparılan intensiv yenidənqurma işləri məskunlaşmanın gözləniləndən daha tez baş verəcəyindən xəbər verir. Deputatın sözlərinə görə, 30 illik işğal müddətində tamamilə dağıdılaraq xarabalığa çevrilən ərazilərimizin 30 ay müddətdən tam bərpası mümkün deyil: ”Bu prosesin zaman tələb edəcəyi qaçılmazdır. Dağıntıların miqyası bunu daha aydın şəkildə göstərir. Ermənistanın 30 illik işğalı zamanı Azərbaycan ərazisində 900 yaşayış məntəqəsi tamamilə dağıdılıb. Nəqliyyat və digər infrastrukturun da dağıdılmasını əlavə etsək, o zaman ziyanın miqyası daha da böyüyür. Bu baxımdan, məskunlaşma yenidənqurma işlərinə uyğun olaraq mərhələli şəkildə həyata keçiriləcək. Digər tərəfdən uzun müddət işğal altında qalan ərazilərimizdə minaların sayının kəskin çox olması prosesə təsir edən faktorlardandır. Yalnız Füzuli rayonunda 80 minədək minanın olduğu güman edilir. Ona görə də məskunlaşma əhalinin təhlükəsizliyi gözlənilməklə ağıllı qayıdış formasında həyata keçirilir. Minadan təmizləmə işinin sürətlə aparılması da məhz əhalimizin təhlükəsizliyini qorumaq məqsədi daşıyır. Hər şeyə rəğmən, Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur və bərpa edilir. Tezliklə ”Böyük Qayıdış”ın yeni mərhələləri başlayacaq. Gülüş və həyat Qarabağa qayıdır. Bu dəfə daimi”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;**



# Detallı məlumatlar yayılır

## Dövlət çevik informasiya siyasəti aparır

**Müasir dövrü özündən əvvəlkilərdən fərqləndirən əsas dəyişikliklərdən biri sosial mediadır. ”Facebook”, ”Twitter”, ”Youtube”, ”İnstagram”, ”TikTok” kimi sosial şəbəkələrin sayəsində yaranmış bu yeni platforma insanların ətrafda baş verənlərdən xəbərtutma vərdişlərində ciddi dəyişikliklər edib. Artıq insanların böyük əksəriyyəti informasiya ehtiyaclarını ictimai rəyə güclü təsir imkanları olan sosial şəbəkələr vasitəsi ilə ödəyir.**

Bu tip informasiyalardan biri və ən vacibi ordu, müharibə, hərbi əməliyyatlarla bağlı olan xəbərlər, bir çox hallarda isə məxfi informasiyalardır. Şübhəsiz, insanlarda ən çox maraq doğuran məhz bu tip informasiyalardır. Bundan istifadə etməyə çalışan bəzi saytlar və sosial media istifadəçiləri sırf ”like” toplamaq və izləyici sayını artırmaq üçün vətəndaşlar arasında əsassız narahatlıq yaradır, eləcə də dövlətin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində görülən işlərə kölgə salaraq həqiqətə uyğun olmayan informasiyalar yayırlar. Onlar anlamırlar ki, dezinformasiya çox təhlükəli bir silahdır. Biz bunun fəsadlarını istər Aprel döyüşlərində, istər Tovuz hadisələrində, istərsə də 44 günlük Vətən müharibəsi zamanı görmüşük. Aprel döyüşləri zamanı sosial şəbəkələrdə müharibənin başlaması, çoxlu itki verdiyimiz barədə məlumatlar yayılmağa başlamışdı. Sonra məlum oldu ki, ”sosial şəbəkə təhqiqatçıları” bu informasiyaları erməni mətbuatından götürüb. Xəbərlər bir neçə saat ərzində rəsmi şəkildə təkzib olunsa da, artıq cəmiyyət arasında ajiotaja səbəb olmuşdu. Bənzər hallar Tovuz hadisələri zamanı da baş vermişdi.

Əfsuslar olsun ki, eyni arzuolunmaz halla sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törətdikləri genişmiqyaslı təxribat zamanı da üzləşdik. Dövlət qurumlarının, müvafiq orqanların rəsmi açıqlamalarını gözləməyən sosial şəbəkə istifadəçiləri və bir sıra saytlar ”canfəşanlığını” bu dəfə də əsirgəmədi. Anlamaq lazımdır ki, 44 günlük müharibəni zəfərlə başa vurmuş olsaq da, mübarizəmiz, xüsusən Ermənistanla informasiya savaşımız davam etməkdədir. O baxımdan ara-sıra baş verən lokal hərbi əməliyyatlarda, düşmənin təxribat cəhdlərinin qarşısının alınmasında informasiya təhlükəsizliyinə xüsusi diqqət yetirilməlidir.

Sosial şəbəkələr bütün dünyada müasir jurnalistikaya ciddi təsir göstərir. Müşahidələr də göstərir ki, sosial şəbəkələrdə yayılan informasiyalar həmin andaca xəbər saytlarında özünə yer tapır. Bəzi bloqerlər, tiktokerlər, vloqerlər həm ucuz İP dalınca qaçmaq, həm də qısa zamanda populyarlıq əldə etmək, səhifələrini məhşurlaşdırmaq məqsədilə dezinformasiyalara əl atırlar. Xəbər paylaşmaq üçün əlində kiçicik imkanı olan özünü ”xəbər yayımçısı” elan edir və ağına-bozuna baxmadan cəmiyyətə informasiya ötürür. Dezinformasiyaların paylaşılması əhali arasında təşviş yaradır. İnsanlar yenidən müharibənin başladığını hesab edib, narahatlıq hissi keçirirlər. Çünki savaş, döyüş vətəndaşların həssas yeridir. Ona görə də belə məqamlarda diqqətli olmalı, yalnız rəsmi informasiyalara inanmalıyıq. Bunu nəzərə alan Müdafiə Nazirliyi ötən gün yenidən xəbər saytlarına və sosial şəbəkə istifadəçilərinə müraciət edib: ”Yalnız Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumatlardan istifadə edilsin, qarşı tərəfin dezinformasiya xarakterli yalan məlumatları paylaşılmasın! Bildiririk ki, Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı nəticəsində baş verən döyüş toqquşması barədə mütəmadi olaraq rəsmi məlumatlar veriləcəkdir”. Bunun ardınca Baş Prokurorluq da media nümayəndələrinə və sosial media istifadəçilərinə müraciət edib: ”Ermənistanın təcavüzkar mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmaları məqsədilə Azərbaycanın Baş Prokurorluğu tərəfindən zəruri tədbirlər görülür. Media nümayəndələrindən, həmçinin sosial media istifadəçilərindən rəsmi olmayan və dəqiqləşdirilməmiş məlumatların ictimailəşdirilməməsi xahiş olunur”. Medianın İnkişafı Agentliyi və Mətbuat Şurası da məsələyə reaksiya verib və dövlət qurumlarının çağırışlarına ciddi yanaşılmasını tövsiyə ediblər. Mətbuat Şurasının yaydığı bəyanatda vurğulanıb ki, Müdafiə Nazirliyi öz növbəsində cəmiyyətin məlumatlandırılmasını kifayət qədər operativ həyata keçirməkdədir: ”Qurum Ermənistan KİV-ləri və sosial media seqmenti tərəfindən dövriyyəyə buraxılan dezinformasiyalara dərhal reaksiya verir. Bu, cəmiyyətimizin yanlış məlumatlandırılmasının qarşısının alınması baxımından son dərəcə mühüm hərəkətlilikdir. Müdafiə Nazirliyi ölkə KİV-lərinə və sosial şəbəkə istifadəçilərinə də müraciət ünvanlayaraq rəsmi mənbələrə istinadın mütləq zəruriliyini diqqətə çatdırıb. İnformasiya bolluğu şəraitində Azərbaycan mediası üçün işləmək də asan olacaq. Hər bir halda ehtiyatı əldən verməmək, düşmənin məkrli planlarına bilməyərəkdən olsa belə alət olmamaq şərtdir. Hesab edirik ki, Azərbaycan jurnalistləri bunu yetərincə ciddi dərk edir. Bir daha həmkarlarımızı həssas davranmağa, yalnız rəsmi mənbələrə istinad etməyə, habelə əldə olunmuş bilgilərin informasiya dəyərini yoxlamağa çağırırıq. Unutmayaq ki, ölkə və xalq üçün müstəsna əhəmiyyət kəsb edən vəziyyətlərdə hər kəsin öz işinə məsuliyyətlə yanaşması ümumi maraqlara ən ali xidmət nümunəsidir”.

***“Nə media, nə də sosial şəbəkə istifadəçiləri düşmən tərəfindən ictimai dövriyyəyə buraxılmış yalan xəbərlərə aludə olmamalıdır”***

**Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli ”Şərq”ə deyib ki, 30 il ərzində Ermənistan dövləti, erməni şəbəkəsi eyni hərəkətləri təkrar edir. Yəni davamlı təxribatlara əl atır, ərazilərimizə təcavüz edir, sonra beynəlxalq ictimaiyyətə yalan məlumat verir ki, guya, Azərbaycan ”təxribat” törədib:** ”Ermənilər 30 il müddətində həm dünya ictimaiyyətini, həm də erməniləri çaşdıran yalan, uydurma informasiyaları tirajlayıblar. Bu gün də eyni siyasəti davam etdirirlər. Bu, Ermənistanın dövlət siyasətidir və ən yüksək səviyyədə həyata keçirilən təxribat əməlləridir. Məncə, 30 illik təcrübə imkan verir ki, Azərbaycan mətbuatı, eyni zamanda xəbər istehsalçıları ermənilərin bu metodologiyasından məlumatlı olsunlar, təxribatları görsünlər. Bununla paralel olaraq müvafiq dövlət qurumları, Medianın İnkişaf Agentliyi, Mətbuat Şurası, media ekspertləri dəfələrlə xəbərdarlıqlar ediblər. Bəyan edilib ki, rəsmi şəkildə təsdiqini tapmamış informasiyalar tirajlanmasın. Xüsusən, düşmən tərəfindən ictimai dövriyyəyə buraxılmış yalan xəbərlərə aludə olmasınlar. Çünki belə informasiyalar cəmiyyətdə çaşqınlıq və ajiotaj yaradır. Bundan ötrü indiyədək kifayət qədər maarifləndirmə işləri aparılıb. Əgər buna rəğmən, kimlərsə sosial şəbəkələrdə, hansısa media qurumlarında təxribat xarakterli əsassız məlumatları yayırsa, deməli bu, təsadüfi deyil. Belə çıxır ki, kimlərsə qərəzli və məqsədli şəkildə düşmənin maraqlarına xidmət edirlər. Bundan çəkinmək lazımdır”.

**M.Ələsgərli qeyd edib ki, Azərbaycanın müvafiq dövlət qurumları və informasiya siyasətinə cavabdeh şəxslər kifayət qədər operativ işləyirlər:** ”Müdafiə Nazirliyi də ictimaiyyətlə əlaqədə intensiv şəkildə işləyir, brifinqlər, mətbuat konfransları keçirir. Məqsəd baş vermiş hadisə barədə informasiya bolluğu yaratmaqdır. Kimsə deyə bilməz ki, informasiya qıtlığı var. Belə bəhanələr artıq əldən çıxıb. Hadisələr haqqında detallı məlumatlar yayılır. Dövlətimiz çevik informasiya siyasəti aparır. Ona görə də hər kəs rəsmi təsdiqini tapmış xəbərləri paylaşmalıdır. İnformasiya dövriyyəsinin monitorinqi aparılır. Bir müddət sonra bunlar təhlil olunacaq və müvafiq ölçülər götürüləcək”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Ehtiyatda olan mayor təklif səsləndirdi

## ”Ekstremal vəziyyətlərdə işləməyi bacaran reportyorlar hazırlanmalıdır”

**”Sərhəddə baş verən gərginliklə bağlı informasiyanı müvafiq qurumun mətbuat xidmətindən almaq lazımdır”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında Konflikt Jurnalistikası Məktəbinin təsisçisi və rəhbəri, ehtiyatda olan mayor Əlisəfa Mehdiyev deyib.

O, hər kəsi rəsmi mənbələrə istinad etməyə çağırıb: ”Orduya dair rəsmi məlumatları Müdafiə Nazirliyi (MN) bəyan edir. MN yetəri qədər informasiya vermirsə, hadisə yerindən çəkiliş aparmaqla xəbəri çatdırmaq mümkündür.

Eləcə də, hadisə yerində olan ən azı üç nəfərin danışığından informasiya vermək olur. Bu şərtlərə əməl edilərsə, məhkəmə ilə üz-üzə qalmazsınız.

Media qurumları ekstremal situasiyalarda işləməyi bacaran reportyorlar hazırlamalıdır. Redaksiya şərhçilər, xəbərçilər formalaşdırmalıdır”.

*Qeyd edək ki, sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib. Nəticədə Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti arasında itkilər var, hərbi infrastruktura ziyan dəyib.*

**Aygün TAhir**

# Düşmənin informasiya cəbhəsi yarıldı!

## “Ermənistan və onun himayədarlarının genişmiqyaslı erməni təxribatını gizlətmək planları iflasa uğradı”

**Azərbaycanın Baş Prokurorluğu media nümayəndələrinə və sosial media istifadəçilərinə müraciət edib. Müraciətdə qeyd olunub: ”Ermənistanın təcavüzkar mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmaları məqsədilə Azərbaycanın Baş Prokurorluğu tərəfindən zəruri tədbirlər görülür.**

Media nümayəndələrindən, həmçinin sosial media istifadəçilərindən rəsmi olmayan və dəqiqləşdirilməmiş məlumatların ictimailəşdirilməməsi xahiş olunur”.



**Müraciəti dəyərləndirən ”Demokrat.az” saytının baş redaktoru Vasif Həsənli ”Şərq”ə bildirib ki, peşəkar media 44 günlük Vətən savaşında olduğu kimi, dünən də öz prinsiplərini qoruyub:** ”Ermənistanın irimiqyaslı təxribatları ilə bağlı Azərbaycanın Müdafiə Nazirliyi çox operativ şəkildə cəmiyyəti məlumatlandırdı və jurnalistlərimizin işini asanlaşdırdı. Erməni mediasında və digər sosial seqmentlərdə dezinformasiyalar müəyyən edildi, döyüşlərdən hər an operativ məlumatlar ötürüldü. Heç bir neqativ hallara yol verilmədi. Jurnalistlərimizin və bloqerlərimizin sorğularına operativ cavab verildi.

Etimad qazanmış mediamız gecə səhərədək ölkə ictimaiyyətini tam məlumatlandıra bildi. Xüsusilə qeyd etmək istəyirəm ki, Müdafiə Nazirliyi və digər əlaqədar qurumların fövqəladə hallarda bu cür prinsiplərlə əməkdaşlığı olduqca vacibdir. Arzu edərdim ki, dinc dövrdə də aparıcı KİV-lərimizin sorğuları belə operativ şəkildə cavablandırılsın.

Düşmənin bütün informasiya alətlərindən istifadə edərək, Azərbaycan haqqında ölkədə və dünyada mənfi rəy yaratmaq istəyi bu dəfə də baş tutmadı. Düşmənin və onun himayədarlarının genişmiqyaslı erməni təxribatını gizlətmək planları iflasa uğradı. Amma biz yenə də səfərbər olmalıyıq.

Peşəkarlıqdan irəli gələn prinsiplərə sadiq qalmalı, qaynar nöqtələrdən mərkəzləşdirilmiş operativ məlumatları bundan sonra da beynəlxalq ictimaiyyətə çatdırmalıyıq”.

**Günəş Mərd**

**”İran rəsmiləri Ermənistanla sinxron formada fəaliyyət göstərir”. Bu barədə ”Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz deyib. Ekspert bildirib ki, Azərbaycanın erməni təxribatlarına qarşı cavab tədbirləri başlayan anda, heç bir dəxli olmadığı halda**



# İran Ermənistanda texnoloji mərkəzlər açır

## İkinci Qarabağ savaşından sonra iki ölkə arasında inteqrasiyalar hədsiz güclənib

**İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani Tehranın Azərbaycan və Ermənistan arasında gərginlikdən narahat olduğunu deyərək ”sərhədlərin dəyişdirilməsinin əleyhinə olduqlarını” bildirib: ”İran mediası, guya, Azərbaycanın ”hücum etdiyini” açıqlamaqla Ermənistanla müttəfiq olduqlarını bir daha göstərdilər.**

Ümumiyyətlə, erməni mediasından görmək olardı ki, İkinci Qarabağ savaşından sonra Ermənistan və İran arasında əlaqələr, birgə toplantılar, görüşlər, inteqrasiyalar hədsiz güclənib. Ermənistan texnologiyalar və innovasiyalar sahəsində də İranla tam işbirliyindədir.

İran bu ölkədə bir neçə texnoloji mərkəzlər açıb. Ötən ay İranda Rusiya, Belarus və maraqlıdır ki, həm də Ermənistanın iştirakı ilə dron üzrə hərbi təlimlər, yarışlar keçirilib. Cari ilin may ayında isə İran Tacikistanda hərbi dronlar istehsal edən müəssisənin açılışını edib. Maraqlıdır, bu gün Ermənistan Baş naziri Nikol Paşinyan parlamentdə çıxış edərkən yeni hərbi texnikaların alınmasından danışıb.

İstisna etmirəm ki, İran da Rusiyanın etdiyi kimi pulsuz və güzəştli silah və hərbi texnikanı, hərbi texnologiyaları Ermənistana verməkdə maraqlıdır”.

*O.Gündüzə görə, Qafanda konsulluq açan İran, İrəvanda dron zavodu açmaqdan da çəkinməz:* ”Son zamanlar hər iki ölkə arasındakı texnoloji iş birliklərinin güclənməsi düşünmək üçün əsas verir ki, Ermənistan öz ərazisində silah istehsalı, xüsusən dron istehsalında İran texnologiyalarından istifadəyə ciddi maraq göstərir.

Xatırlayıram ki, İkinci Qarabağ savaşı zamanı İran ərazisindən Ermənistana silah daşınmasını əks etdirən videomateriallar yayılmışdı. Rusiya da İran üzərindən Ermənistana silah göndərirdi. Beləliklə, indiki durumda, İranın tələm-tələsik ”qırmızı xətt” açıqlaması verməsindən görünür ki, Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsi və sərhədləri möhkəmləndirməsi onları qane etmir”.

**İsmayıl**

# "Payızda yoluxma hallarının artacağı proqnozlaşdırılır"

## Səhiyyə Nazirliyi: “Ona görə də bu ərəfədə diqqətli olmalı və qabaqlayıcı tədbirlər görməliyik”



**”Payızda yoluxma hallarının artacağı proqnozlaşdırılır”. “Şərq” xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib.**

Onun sözlərinə görə, Ümumdünya Səhiyyə Təşkilatı payız aylarında yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarında artım olacağını proqnozlaşdırır: ”İyundan etibarən ölkəmizdə yoluxma saylarında müəyyən artımlar var. Doğrudur, yoluxma halları 500-700 səviyyəsində stabilləşib. Hətta son günlər infeksiyadan sağalanların sayı yeni yoluxanların sayını üstələyir. Əvvəlki dalğalarda da bunu müşahidə etmişik. Payız mövsümü yaxınlaşır və havalar soyuyur. Bu zaman təkcə COVID deyil, bütün havadamcı infeksiyalarına yoluxma faktlarında müəyyən artımlar, respirator alovlanmalar olur. Pandemiya təcrübəsinə baxsaq görərik ki, 2020-2021-ci illərdə də eyni halı yaşamışıq. Çünki həmin dövrdə infeksiyaların yayılması üçün əlverişli şərait yaranır. Havalar soyuq olduqda insanlar daha çox qapalı mühitlərdə toplanırlar, yaxın təmasların sayı artır, otaqların havalandırılması azalır. Digər tərəfdən isə vətəndaşlar infeksiyaya yoluxma hallarının az olduğu vaxtlarda arxayınlaşaraq fərdi qoruyucu vasitələrdən, maskadan istifadə etmirlər, qaydalara laqeyd yanaşırlar. Bir yandan da payız aylarında insan immunitetinin təbii olaraq zəifləməsi, ikinci tərəfdən isə vaxt keçdikcə istər vaksinasiya, istərsə də xəstəliyi keçirmə nəticəsində koronavirusa qarşı əldə olunmuş immunitetin zəifləməsi baş verir. Bütün bu faktorlar infeksiyanın ötürülməsini daha da asanlaşdırır. Bunu əyani olaraq gündəlik yoluxma hallarında görürük. Payızda yoluxma hallarının artacağı proqnozlaşdırılır. Ona görə də bu ərəfədə diqqətli olmalı və qabaqlayıcı tədbirlər görməliyik”.

Mütəxəssis-ekspert bildirib ki, əvvəllər stasionarın izafi yüklənməsi baş verdiyindən dövlət müəyyən qapanmalara getməyə məcbur olurdu. İndi isə yüksək yoluxma halları olanda belə yüngül xəstələrin sayının çox, stasionar yatışların sayının az olması səbəbindən izafi yüklənmə qeydə alınmır: ”Belə olan halda sərt qapanmalara getməyə ehtiyac olmur. Odur ki, verilən qərarlar ancaq tövsiyə xarakterlidir, yəni maskanın taxılması, məsafə saxlanılması ilə bağlıdır. Düşünürəm ki, belə də davam edəcək. Ehtimal olunur ki, izafi yüklənmə olmayacaq”.

T.Eyvazovun sözlərinə görə, dünyada hazırda COVID-19-un ”omikron” ştamının bir-birindən müəyyən qədər fərqlənən alt tipləri üstünlük təşkil edir və yayılır. Yeni bir ştamın əmələ gəlməsi isə nəzəri olaraq mümkündür.

”Qonşu ölkələrə nəzər salsaq, görərik ki, onlarda artımlar bizdən əvvəl başlayıb və yoluxanların sayı kifayət qədər çoxdur. Azərbaycanda COVID-19-la əlaqədar epidemioloji vəziyyət nisbətən stabil və nəzarətolunandır.

Pandemiya təcrübəsi bizə pandemiya davranışını öyrədib. Bilirik ki, alovlanmalar vaxtı nələrə riayət etməliyik, özümüzü necə gözləməliyik. Bir qədər diqqətli olmaq lazımdır. Etinasızlığın ağır nəticələrə gətirib çıxardığına bir neçə dəfə şahid olmuşuq”, - o bildirib.

# Mətbuat Şurasının İdarə Heyətində yenilik olmalıdır

## Aqil Camal: ”Bu dəyişiklik onun funksionallığının artmasına müsbət təsir göstərə bilər”



**”Bütövlükdə Mətbuat Şurasının fəaliyyəti ilə bağlı təzadlı fikirlər səsləndirilsə də, mən ayrıca olaraq Şuranın sədri Əflatun Amaşovun ötən dövrdəki fəaliyyətini müsbət qiymətləndirirəm”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında ”Türküstan” qəzetinin və Turkustan.info saytının baş redaktoru Aqil Camal deyib.* Baş redaktor bildirib ki, Mətbuat Şurasının sədri Əflatun Amaşov mətbuatın təbəddülatlarla dolu dövrlərində dövlət-mətbuat münasibətlərinin tənzimlənməsində, ziddiyətli tərəflər arasında ünsiyyətin qurulmasında, jurnalistlərin həbsdən çıxmasında, sosial və sağlıq məsələlərinin həllində bacardığı qədər fəaliyyət göstərib: ”Mətbuat Şurasının tərkibinin yenilənməsi haqda fikirlərə normal yanaşmaq lazımdır. Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, mediada da təbii bir yenilənmə, nəsil dəyişməsi baş verib. Medianın 5-10 il əvvəlki ”vitrini” ilə bugünkü mənzərəyə baxanda bunu aydın görmək olur. Ona görə də bu yenilik Mətbuat Şurasının İdarə Heyətində də özünü göstərməlidir. Fikrimcə, Mətbuat Şurasının yenilənməsi onun funksionallığının artmasına da müsbət təsir göstərə bilər”.

**A.Camal vurğulayıb ki, son dövrlər təəssüfedici bir tendensiya müşahidə olunur:** ”Medianın günlük fəaliyyəti, informasiya siyasəti ilə bağlı hüquq-mühafizə orqanlarının xəbərdarlıqlarının sayı artıb. Bu isə istər-istəməz jurnalist yaradıcılığına mənfi təsirini göstərir. Belə deyək ki, jurnalistləri ”özünəsenzura”ya məruz qoyur. Hesab edirəm ki, bu kimi məsələlər MEDİA-nın, Mətbuat Şurasının tənzimləməli olduğu məsələlər olmalıdır. Bu baxımdan Mətbuat Şurasının yenilənmiş şəkildə daha effektiv fəaliyyətinə ümid edirəm. Bu prosesə dəstək üçün mənim də İdarə Heyəti üzvlüyünə bir çox media qurumları tərəfindən namizədliyim irəli sürülüb”.

**İsmayıl**

# Mütləq Aliment Fondu yaradılmalıdır

## Öncə ehtiyac içində olan uşağı və qadını düşünməliyik

**Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər beynəlxalq qaydası ilə bağlı Konvensiya təsdiq ediləcək. Bu, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2022-ci il 21 sentyabr tarixli iclasının gündəliyinə daxil olan ”Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər beynəlxalq qaydası haqqında” Konvensiyanın təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu layihəsində əksini tapıb. Komitənin iclasında Azərbaycan Respublikasının Ailə Məcəlləsində, həmçinin Əmək Məcəlləsində də dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsi də müzakirə ediləcək.**



***“Aliment ödəməyən atanın həbsdə olması və yaxud cəzalandırılması çıxış yolu deyil”***

Qeyd edək ki, ”Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, yaşayış minimumu uşaqlar üçün 193 manat məbləğində müəyyən edilib. Ailə Məcəlləsinə əsasən, aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən bir uşağa görə qazancın, yaxud da gəlirlərin 1/4 hissəsi, 2 uşağa görə qazancın və ya gəlirlərin 1/3 hissəsi, 3 və daha çox uşağa görə isə qazancın və yaxud gəlirlərin yarısı aliment olaraq hesablanır. Alimentin miqdarı məhkəmə tərəfindən müəyyən nüanslar nəzərə alınmaqla azaldıla və ya artırıla bilər. Aliment öhdəliyi olan şəxs işləmirsə və ya heç bir gəliri yoxdursa, bu zaman məhkəmə həmin şəxsə alimentin ödənilməsini sabit pul məbləğində təyin edir. Alimentin sabit pul məbləği uşaqlar üçün yaşayış minimumuna uyğun olaraq hesablanır. Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər.

**”Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova ”Şərq”ə açıqlamasında alimentlə bağlı ayrıca deyil, mövcud qanunlara bir sıra dəyişiklik və əlavələrin edilməsini məqsədəuyğun sayır:**

- Azərbaycan aliment ödənişi məsələsində beynəlxalq qaydaları qəbul edib mövcud konvensiyaya qoşulursa, bu, əlbəttə müsbət haldır. Lakin buna görə ayrıca qanun qəbul etməyə, məncə, ehtiyac yoxdur. Hazırda işlək olan qanunlara - Ailə Məcəlləsi, Əmək Məcəlləsi və s. bir sıra lazımi dəyişiklik və əlavələr etməklə problemin həllində irəliləyiş əldə etmək mümkündür. Aliment ödəməyənlərə qarşı ilkin xəbərdarlıq, cərimə, daha sonra həbs qərarı verilir. Lakin bu, vəziyyətdən çıxış yolu deyil. Aliment ödəməyən atanın həbsdə olması övladına təkbaşına qulluq göstərmək məcburiyyətində qalmış qadına hansı üstünlük verir və ya onun maddi vəziyyəti bununla yaxşılaşırmı? Cəza mexanizmi olmalıdır, sözsüz. Lakin biz öncə ehtiyac içində olan uşağı və qadını düşünməliyik. Bunun üçün də sosial paketlər olmalı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Ədliyyə Nazirliyi ilə birgə işləməli, övladı ilə tənha, maddi sıxıntı içində, heç bir yerdən gəliri olmayan, aliment ödənilməsi də mümkün olmayan məhkəmə işləri barədə ƏƏSMN-yə məlumat verilməli, nazirlik də yardım etməlidir. Hesab edirəm ki, ən optimal yol, yenə də, Aliment Fondunun yaradılmasıdır. Ola bilər yeni qanun layihəsində bu əksini tapsın. Bir çox ölkələrdə Aliment Fondu institutu fəaliyyət göstərir və alimentdən məhrum qalmış uşaqlar bunun sayəsində maddi cəhətdən təmin edilə bilir. Aliment ödənilməsə cərimələrin miqdarının artırılması, əmlakın müsadirə olunması da mümkündür. Lakin bəzən müsadirə ediləsi əmlak da olmur. ”Heç bir yerdə işləməyən”, ”işsiz” atanı nə qədər istəyirsən cərimə et, nə faydası?! Ondansa, maddi sıxıntı içində qalmış ana və körpəni sosial paketlər sayəsində himayə etmək daha normal yanaşmadır.

**M.Zeynalova qeyd etdi ki, alimentin ödənməsi barədə icra olunmamış məhkəmə qərarları vardır. Qonşu ölkələrdə təzyiq metodları fərqlidir.** Məsələn, Rusiyada xüsusi informasiya bazası yaradılıb, aliment ödəyicilərinin adları ora daxil edilir. Bu informasiya polisə, sərhəd-keçid məntəqələrinə ötürülür. Aliment ödəyicisi sürücü yol-hərəkət qaydalarını pozduqda, məlumat bazasında bu açıqlanır və polis tərəfindən ona xəbərdarlıq edilir. Alimentlə bağlı məhkəmə qərarı icra edilməyibsə, şəxsin ölkəni tərk etməsinə icazə verilmir:

- Aliment ödənilməsi problemi ciddi həll tələb edir. Aliment Fonu yaradılsa belə, onun işlək mexanizmi olmayacaqsa, yenə problem həllini tapmayacaq. Bu məsələdə mütləq dövlət dəstəyi, sosial paketlərin olması vacibdir.

**Məlahət Rzayeva**

# Sevgilisi azərbaycanlı blogeri döyüb



**Atlas Fərəcova adlı bloger sevgilisi tərəfindən döyüldüyünü iddia edib.**

Axşam.az xəbər verir ki, o, idarə etdiyi ”materazzi.13” adlı instaqram səhifəsində zorakılığa məruz qaldığı şəkilləri yayımlayıb.

”İki gün əvvəl öz evimin həyətində 2 illik sevgilim tərəfindən vəhşicəsinə döyülmüşəm. Səsimə bacım çıxmasa, yanında gətirdiyi xəncərlə məni öldürəcəkdi. Məni heç kim bu şiddətə qarşı susdura bilməz və susmayacağam da” deyə, Atlas paylaşımında yazıb.

Atlas Daxili İşlər Nazirliyinə müraciət edib. O, daha sonra ”İnanmayanlar Sabunçuda xəstəxanaya müraciət edib, maraqlana bilərlər. Əlimdə müayinə nəticələri var, burnum 4 yerdən qırılıb. 6 ay sonra əməliyyat olunacam” sözlərini əlavə edib.

**Elan**

Ağayev Vamiq Sabir oğluna DİN tərəfindən verilmiş № AZE 38369 xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

# İş yerində sevgili olurmu?

## Bu yaxınlığın başqa bir səbəbi də oxşar işləri görməkdir



**Deyirlər, biznes başqa, dostluq başqa. Bəs sevgini bu bərabərliyə daxil etsək necə olar? Araşdırmalar göstərir ki, iş yoldaşlarımızla romantik münasibətlər qurmağımızın bəzi səbəbləri var.**

Ailəniz və ya dostlarınızdan daha çox iş yoldaşlarınızı görürsüz. Bu, münasibətlərinizin daha da irəliləməsinə səbəb ola bilər. Bu gün bir çox insan həyatının sevgisini iş mühitində tapır.

ABŞ İnsan Resurslarının İdarə Edilməsi Cəmiyyətinin (SHRM) 2022-ci il məlumatlarına görə, işçilər evdən işə başladıqdan sonra iş yerində romantik münasibətlər artıb.

Sorğuda iştirak edən 550 amerikalının üçdə biri pandemiya zamanı bir həmkarı ilə münasibət qurduqlarını və ya davam etdirdiklərini söyləyir. Bu, pandemiyadan əvvəlki məlumatlarla müqayisədə 6 faiz artım deməkdir. Mütəxəssislər bildirirlər ki, iş yoldaşları ilə romantik münasibətlərin artmasının bir neçə səbəbi var. ”İş yoldaşının sevgiliyə çevrilməsi” ideyası bir az tabu kimi görünsə də, respondentlərin 75 faizi həmkarlarının bir-biri ilə görüşməsinin yaxşı olduğunu düşünür.

Əlbəttə ki, hamımız həyatımızda ən azı bir dəfə həmkarımızı cəlbedici görmüşük. Bəzi şirkətlər üçün bu cür romantik münasibətlərə dözülməsə də, iş yoldaşları arasında romantik münasibətlər illərlə davam edir.

2017-ci ilin məlumatlarına görə, ABŞ-da hər 10 cütlükdən 1-i iş yerində tanış olduqlarını deyir. Bəzi məlumatlar bu araşdırmanı təsdiqləyir və göstərir ki, 20-50 yaş arası insanlar dostları ilə müqayisədə iş yoldaşları ilə təxminən dörd dəfə çox vaxt keçirirlər.

ABŞ-ın Kornell Universitetindən Vanessa Bohns deyir: ”İşdə insanın romantik münasibət qurması təəccüblü deyil, çünki iş getdikcə daha çox vaxtımızı alır”.

ABŞ-ın Miçiqan Universitetindən Amie Qordon deyir ki, iş yerində münasibətlərin inkişafı üçün iki əsas amil vacibdir: yaxınlıq və tanışlıq. İnsan bir şeyi (və ya kimisə) nə qədər çox görsə, onu bəyənmə ehtimalı bir o qədər çox olar. Kimisə nə qədər tez-tez görsək və onunla nə qədər çox ünsiyyətdə olsaq, bir o qədər cazibədar görünür. Bu, həm emosional, həm də fiziki yaxınlığın artmasına səbəb olur.

Bu yaxınlığın başqa bir səbəbi də oxşar işləri görməkdir. Əgər hər ikiniz hüquqşünassınızsa və eyni təhsillisinizsə, çox güman ki, dünyanı eyni şəkildə qəbul edəcəksiniz. Ofis romantikası qaçılmaz olsa da, yenə də mürəkkəbdir. İş yoldaşları tərəfindən romantik münasibətə başlamaq cinsi qısnama iddialarını artıra və ya maraqlar toqquşması yarada bilər. Həmçinin, ofis romantikası komandanın qalan hissəsini poza bilər və performansa təsir edə bilər.

Əgər işdən kənarda fərqli münasibət qurmaq istəyirsinizsə, mütəxəssislər sizi səbəblərinizi nəzərə almağa, müsbət və mənfi cəhətləri ölçməyə çağırır. Ən əsası, bir müdir və sizdən yuxarı biri ilə münasibətdəsinizsə, özünüzü çox daha mürəkkəb vəziyyətə sala bilərsiniz.

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2628



## Bəslədiyi kenqurunun qurbanı oldu

### Heyvan evə gələn təcili yardım heyətinin sahibinə yaxınlaşmasına izin verməyib

**Avstraliya sakini evdə bəslədiyi kenqurunun qurbanı olub.**

”NTV.com.tr” xəbər verir ki, hadisə Avstraliyanın Qərbi Avstraliya əyalətində baş verib. Əyalətin Redmond qəsəbəsinin 77 yaşlı sakini illərdir bəslədiyi kenqurunun hücumuna məruz qalıb. Hadisə yerinə gələn polis əməkdaşlarının verdiyi məlumata görə, adam kenqurunun hücumu nəticəsində ağır yaralanıb. Kenquru evə gələn təcili yardım heyətinin sahibinə yaxınlaşmasına da izin verməyib. Həkimlər tərəfindən iynə vurulması nəticəsində kenquru yatırılıb, lakin yaralı adam oradaca keçinib. Avstraliyada kenquruları evdə bəsləməyə qanunla icazə verilir. Kenqurular adətən sakit heyvanlar hesab edilir. Kenquru hücumundan ölüm hadisəsi 1936-cı ildən bəri ikinci dəfədir ki, yaşanır. 1936-cı ildə Avstraliyanın cənubundakı Hillston qəsəbəsinin sakini 38 yaşlı Uilyam Cruickhank kenquru hücumu nəticəsində vəfat etmişdi. Boz kenquraların çəkisi 54 kiloqram, boylarının hündürlüyü 1,3 metr olur. Bildirilir ki, erkək kenqurular insanlara hücum etmək xüsusiyyətinə malikdirlər.

**Məlahət**

## Van Dammın gəlini Şuşadan fotolarını paylaşıb




**Hollivud ulduzu Jan Klod Van Dammın oğlu Kristoferin pianoçu həyat yoldaşı Suada Hacızadə Şuşaya yollanıb.**

Bizim media xəbər verir ki, musiqiçi sosial şəbəkə hesabında Şuşada çəkdirdiyi fotolarını paylaşıb. Suada həyat yoldaşı Kristoferin onunla birlikdə gələ bilməməsinə münasibət bildirib:

”Dumanlı dağlardan keçərək, yağışın altında gəzmək, iki avtobus dolu insan - biz bunu etdik. Bu şəkillərdə gördüyünüz insanlar dünyanın bir sıra xarici ölkələrində yaşayan azərbaycanlılardır. Təəssüf ki həyat yoldaşım Kristofer səyahətdən bir gün əvvəl ABŞ-a uçdu. Lakin biz Şuşaya birlikdə dəvət edilmişdik”.

*Xatırladaq ki, Kristofer-Suada cütlüyü ötən ilin iyununda Azərbaycanın Türkiyədəki baş konsulluğunda doğmalarının iştirakı ilə baş tutan nikah mərasimində ailə həyatı qurub.*

## Şahzadə Harri və Meqanla qonşu olmaq üçün 14,8 milyon ödədi



**Hollivud ulduzu Cennifer Eniston Şahzadə Harri və həyat yoldaşı Meqan Marklın yaşadığı səmtdən yeni ev alıb.**

**Axşam.az xəbər verir ki, sözügedən mülk aktrisa və aparıcı Opra Uinfrinin Montecitodakı malikanəsidir. Yeni villa aktrisaya 14,8 milyon dollara başa gəlib.**

**Okeana baxan ev 1998-ci ildə tikilib. Ərazisi sıx meşə ilə əhatə olunan villada 15 maşınlıq dayanacaq da var.**

## Yeni filmin çəkilişi başlayır

### Kıvançla Beren 14 il sonra bir araya gəlib



**Sonuncu dəfə 14 il əvvəl ”Aşk-ı Memnu” serialında tərəf müqabili olan aktyorlar Kıvanç Tatlıtuğ və Beren Saat yeni filmlərinin çəkilişi üçün bir araya gəliblər.**

**Oxu.az xəbər verir ki, sosial şəbəkədə Nyu-Yorkda lentə alınan ekran işindən fotolar böyük marağa səbəb olub.**

**Qeyd edək ki, ekran işi ”Netflix”də yayımlanacaq.**

## Sevgilisinin imtina etdiyi rol ona verildi



**Yaxın zamanda yayımlanması gözlənilən ”Cennetin çocukları” serialında yer alan aktyorlardan daha birinin kimliyi bəlli olub.**

**Axşam.az xəbər verir ki, ekran işində aktrisa İrem Helvacıoğlu rol alacaq. O, layihədə ”Zeynep” obrazına həyat verəcək. İrem ”Halil” obrazını canlandıran aktyor Alp Navruzun tərəf müqabili olacaq.**

***Qeyd edək ki, bundan əvvəl sözügedən obraz Alpın sevgilisi aktrisa Ayça Ayşin Turana təklif olunsa da o, bundan imtina etmişdi. Ayça sevgilisiylə ikinci dəfə eyni serialda rol almasının karyerasına mənfi təsir edəcəyini düşündüyünü bildirmişdi.***





# Uşaqlarının kor olacağını bilirlər

### Kanadalı cütlük vaxt itirmədən onlara “vizual xatirələr” yaşatmaq üçün dünya səyahətinə çıxıblar

**Kanadalı cütlük Edith Lemay və Sebastien Pelletier görmə qabiliyyətini itirmək üzrə olan övladlarına mümkün qədər çox ”vizual xatirələr” yaşatmaq üçün dünya səyahətinə çıxıblar.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, üç yaşlı qızları Mianın görmə problemi olduğunu anlayan kimi onu mütəxəssisə aparıblar. Miaya zamanla görmə qabiliyyətini itirmək və ya zəifləməsinə səbəb olan nadir bir genetik xəstəlik retinitis piqmentoza diaqnozu qoyulub.

12 ildir evli olan cütlük oğullarının da oxşar simptomlar yaşadığını anlayıb və 2009-cu ildə oğullarında da eyni genetik xəstəlik aşkarlanıb.

”Həqiqətən edə biləcəyiniz heç bir şey yoxdur” deyən Lemay hazırda xəstəliyin inkişafını əngəlləmək üçün heç bir müalicənin olmadığını söyləyir. Cütlük övladlarının orta yaşa qədər tamamilə kor olacağını proqnozlaşdırır.

Bundan sonra kanadalı cütlük həyatlarını uşaqlarına həsr etmək qərarına gəliblər. Qızları Mianın eksperti uşaqları ”vizual xatirələrə” cəlb etməyi təklif etdikdə, cütlük uşaqları üçün edə biləcəkləri ən yaxşı şeyin dünyanı gəzmək olduğuna qərar verdilər.

Uşaqların anası ”Fikirləşdim ki, kitabda ona fil göstərməyəcəm, onu əsl fil görməyə aparacağam. Və onun vizual yaddaşını bacardığım ən yaxşı və ən gözəl obrazlarla dolduracağam”.

Beləliklə, cütlük uşaqları ilə birlikdə dünyanı gəzməyə başlayıb. Valideyn olmadan əvvəl də tez-tez birlikdə səyahət edən cütlük indi övladlarını fərqli istiqamətlərə aparmağa və onlara unudulmaz anlar yaşatmağa çalışır.

Diaqnozdan sonra vaxtlarının azaldığını bildirən ata Pelletier əslində maliyyə sahəsində çalışır. O, fərqli mədəniyyətləri və insanları tanımağın vacibliyini vurğulayaraq, ”Evdə etmək üçün gözəl şeylər var, amma səyahət etməkdən yaxşı bir şey yoxdur” deyə vurğulayır.

Dünya səyahətləri üçün qənaət etməyə başlayan cütlük Pelletierin çalışdığı şirkətdən də dəstək alıb.

Cütlük bu prosesin çətin keçdiyini, lakin uyğunlaşmağa çalışdıqlarını bildirib. ”Haraya getsək də, dünyada gözəl yerlər var”, - cütlük bildirib.

”Uşaqlara nə təsir edəcəyini təxmin edə bilmərik. Küçədə balaca pişikləri görəndə belə çox sevinirlər”. Dünyanın bir çox ölkəsini siyahısına daxil edən cütlük Türkiyəyə də səfər edib və buradan da bir-birindən maraqlı fotolar paylaşıb.





**Turan**



# Yeni kralın köhnə vərdişləri

### Günorta yemək yemir, isti suyla çimməyi sevmir

**Birləşmiş Krallığın 70 il taxt-taca sahib olmuş kraliçası II Elizabetin vəfatı, oğlu, şahzadə Çarlzın kral elan edilməsinə səbəb oldu. Dünənədək ana kraliçanın kölgəsində qalmış şahzadə Çarlz yeni kral olaraq diqqət mərkəzindədir artıq. Çarlzın adı bir vaxtlar daha çox şahzadə Diana ilə hallanırdı, həm də aldadılan həyat yoldaşı olaraq. İndi isə çoxlarını Kral III Çarlzın Tanrının verdiyi ömür payının neçə ilini kral həyatı sürə biləcəyi düşündürür. Yaşı çox irəliləyib də, ondan. Bu arada, ”Milliyet.com.tr” Britaniyanın yeni kralının 10 vərdişi barədə maraqlı material dərc edib. Kralın vərdişləri ”yox artıq!” dedirdən qəbildəndi.**

73 yaşlı kral III Çarlzın sabiq katibi olmuş Julian Payne bu barədə məlumat paylaşıb. Sabiq katibin dediyinə görə, kral Çarlz günorta saatlarında nahar etmir. O, daha çox səhər yeməyinə önəm verir. Onun səhər yeməyi bəzən saatlarla davam edir. Soyutma yumurta ilə bağlı qənaətlər də fərqlidir. Saray çalışanlarının bir qismi Çarlzın soyutma yumurta sevdiyini, bir qismi isə sevmədiyini iddia edir. Kral səhər yeməyində müxtəlif qidaların olmasını sevir. Kral isti suyla çimməyi də sevmir. Ancaq ılıq və az miqdarda suyla yuyunur. Kral günə qəzetləri vərəqləmək, manşet yazıları oxumaqla başlayır. Bu əsnada isə əlinin altında meyvə salatı olur. Kral qapalı yerdə qalmağı xoşlamır, kabinetdə çalışarkən də bütün pəncərələri açıq saxlayır. Günorta saatlarından öncə qaçışa çıxmağı sevir və bununla da motivasiyasını yüksəldir. Hər gün saat 17:00-da işinə fasilə verir və bütün fasilə boyunca həyat yoldaşı Camilla Parker Bovleslə keçirir. Fasilədə ən sevimli məşğuliyyəti isə meyvəli kek yeməkdir. Kral Çarlz gənclik illərindən cello musiqi alətində çalmağı öyrənib və bunu çox sevir. Boş vaxtlarında sulu boya ilə rəsm çəkir. Onun bəzi rəsm əsərləri hətta satışa da çıxarılıb. Əldə edilən məbləğ ehiyac sahiblərinə ödənilib. Yeməklər məsələsində kralın bəzi həssaslıqları var. Məsələn, kral Çarlz göbələkləri sevir, həm də məhz Britaniya ərazisində yetişənləri. Quzu ətini də çox sevir. ”Marqarita” pizzasını da sevir. 2019-cu ildə Şotlandiya səfəri zamanı şef Ermino Di Meo şahzadə üçün məxsusi pizza hazırlamışdı, Çarlz onu bəyənmişdi. Meyvələrdənsə ən çox sevdiyi ərikdir. Kral Highgrove malikanəsinin bağçasında bitən bənövşəyi ərikləri özü toplamağı xoşlayır. Kral Çarlz nəsli tükənməkdə olan dələlərin xilaskarı kimi də tanınır. Dələlərin qorunması üçün dərnək təşkil edib. Kralın ən çox sevdiyi mahnı isə 1935-ci ildə ABŞ musiqiçisi Dick Povelin bəstələdiyi ”Lulu.s Back in Town” mahnısıdır. Deyilənə görə, Çarlz bu mahnını hər dəfə dinləyəndə nənəsini xatırlayır.

**Məlahət**

## Epidemiya yarada bilər

### Türkiyədə gənədən insana keçə bilən yeni bakteriya növü aşkarlanıb



**Türkiyədə gənədən insana keçə bilən yeni bakteriya növünə İstanbul Belqrad meşəsində, Trakya və Şimali Anadoluda rast gəlinib. Mütəxəssislər xəbərdarlıq ediblər ki, ehtiyat tədbirləri görülməsə, bu bakteriya növü gələcəkdə epidemiya halını ala bilər.**

”Şərq” ”trt.haber”ə istinadən xəbər verir ki, Ankara Universiteti Baytarlıq Fakültəsi Parazitologiya kafedrasının professor-müəllim heyətinin apardığı araşdırma elmi jurnalda dərc olunub. Araşdırmaları şərh edən ”Gənə və Gənə ilə əlaqəli Xəstəlikləri Araşdırma Laboratoriyası”nın başçısı Dos. Dr. Ömər Orkun, 2000-ə yaxın gənədə yüzlərlə patogeni (xəstəliyə səbəb olan mikrobları) skan etdiklərini və 32 fərqli gənə patogeninin varlığını təyin etdiklərini söyləyib. Orkun bildirib ki, bu, qorxulu rəqəmdir. Aşkar edilən patogenlərdən 10-nun insana yoluxa bildiyi ortaya çıxıb. Onlardan biri Avropada yeni ortaya çıxan patogendir. Orkun qeyd edib ki, bu növ Avropada ən çox araşdırılan gənə növüdür. Türkiyədə isə yenidir. Xüsusilə Anadolunun şimalında və İstanbulda yayılma riski böyükdür. Sözügedən bakteriya insanlarda qan damarlarının iltihabı və tıxanması ilə bağlı bəzi pozuntulara səbəb ola bilər. Ömər Orkun onu da bildirib ki, keçmişdə immun sistemi zəifləmiş və ya təzyiqi olan insanların bu bakteriyaya yoluxduğu deyilsə də, indi immun sistemi çox yaxşı olan sağlam insanlarda belə bu hala rast gəlinə bilər.

**Günəş Mərd**

## 1-ci qan qrupu olanların xərçəng riski azdır

### Tətqiqat 1 milyondan çox adamın üzərində aparılıb



**İçveç alimləri xərçəngə ən həssas qan qrupunu araşdırıb.**

Medicina.az xəbər verir ki, 1-ci qan qrupu olanlar arasında bu xəstəliyə digər qruplarla müqayisədə qat-qat az rast gəlinir.

Tətqiqat karolina instutunun almiləri tətərfindən 35 il ərzində, 1 milyondan çox adam üzərində aparılıb. Nəzarət ərəfəsində digər qan qruplarından isə fərqli nəticələr əldə edilib.

Məlum olub ki, 2-ci qan qrupu olanlarda mədə xərçəngi, 3 və 4-cü qan qruplarında isə mədəaltı vəzi xərçənginə daha çox təsadüf edilir.